

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

09 iyul
2026-cı il,
cümə axşamı
№ 118 (7185)
Qiymәti
60 qəpik


# Dostluq və qardaşlıq prinsiplərinə əsaslanan əlaqələr



Bax səh. 2

# Beynəlxalq investorların Azərbaycana marağı artır

Bax səh. 3

## "OPEC+" ölkələri neft hasilatını artırır

"OPEC+" ölkələri (Səudiyyə Ərəbistanı, Rusiya, İraq, Küveyt, Qazaxıstan, Əlcəzair və Oman) neft hasilatı kvotasını gündəlik 188 min barel artırmaq barədə qərar qəbul edib. Təşkilatın iyulun 5-də keçirilən iclasında əldə edilmiş razılığa əsasən, avqust ayından etibarən alyans üzvləri ümumi neft hasilatı kvotasını gündəlik 36 milyon barelə çatdıracaq. Bununla da təşkilata daxil olan ölkələrin mart ayından tətbiq etdiyi aşağı nəql həcmi artırılmaqla əvvəlki kvotaya uyğun olacaq. Artım qrafikinə əsasən, məhdudiyyətlər tamamilə aradan qaldırılacaq...

Bax səh. 5

## Yeni mərhələ - torpaqların konsolidasiyası

Ölkəmizdə aqrar sektorda yeni yanaşmaların tətbiqi yolu ilə məhsuldarlığın artırılması və daxili tələbatın yerli istehsal hesabına ödənilməsi prioritet hədəflərdən biri kimi müəyyənləşdirilib. Prezident İlham Əliyevin kənd təsərrüfatı məsələlərinə həsr olunan müşavirədə səsləndirdiyi fikirlər və qarşıya qoyduğu vəzifələr təsdiqləyir ki, Azərbaycan aqrar sektorun inkişafında yeni mərhələyə keçid edir. "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"...

Bax səh. 5

## Praqmatik və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq modeli

Azərbaycan-ABŞ münasibətləri son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyaraq regional və qlobal proseslərin mühüm komponentinə çevrilməkdədir. Xüsusilə Bakının Cənubi Qafqazda formalaşdırdığı yeni iqtisadi, siyasi və təhlükəsizlik reallıqları Vaşinqtonun bölgəyə baxışını əhəmiyyətli dərəcədə dəyişib. Prezident İlham Əliyevin ABŞ-ın müstəqilliyinin 250 illiyi münasibətilə Prezident Donald Trampa ünvanladığı məktubda vurğulanan məqamlar, eləcə də dövlətimizin başçısının Mayamidə keçiriləcək G20 Liderlər Sammitinə dəvət olunması...

Bax səh. 3

# 32 ölkə arasında 1-ci yerdə

Bax səh. 4




# Ankaradan verilən mesajlar...

Bax səh. 6

# Dostluq və qardaşlıq prinsiplərinə əsaslanan əlaqələr

## Prezident İlham Əliyev İordaniya Baş nazirinin müavini, xarici işlər və mühacir məsələləri nazirini qəbul edib





Azərbaycan Prezidenti İlham Əliyev iyulun 8-də İordaniya Haşimilər Krallığının Baş nazirinin müavini, xarici işlər və mühacir məsələləri naziri Əymən Əs-Safadini qəbul edib. AZƏRTAC xəbər verir ki, qonaq İordaniyanın Kralı II Abdullah ibn Al Hüseynin salamlarını və İordaniyaya dəvətini dövlətimizin başçısına çatdırıb, İordaniya Kralının Azərbaycan Prezidenti ilə şəxsi münasibətlərə çox böyük dəyər verdiyini qeyd edib.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını İordaniyanın Kralına çatdırmağı xahiş edib.

Azərbaycan Prezidenti də öz növbəsində İordaniya Kralını ölkəmizə səfərə dəvət edib. Dövlətimizin başçısı ölkəmizdə, İordaniyada və beynəlxalq tədbirlər çərçivəsində Kral II Abdullah ibn Al Hüseyn ilə görüşlərini məmnunluqla xatırlayıb. Söhbət zamanı müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların ölkələrimiz arasında münasibətlərin inkişafı baxımından mühüm rol oynadığı vurğulanıb, əlaqələrimizin dostluq və qardaşlıq prinsiplərinə əsaslandığı qeyd edilib.

Siyasi, iqtisadi, energetika, bağlantılar, investisiyalar, humanitar və digər sahələrdə tərəfdaşlığın möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilib, regional məsələlər, gələcək təmaslar, hökumətlərarası komissiyanın fəaliyyətinin genişləndirilməsi və parlamentlərarası əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

Turizm sahəsində əməkdaşlığa toxunularaq, bu xüsusda Azərbaycanla İordaniya arasında birbaşa müntəzəm aviareyslərin açılması məsələsi müzakirə olunub.



## Diplomatik xidmət orqanları əməkdaşlarına diplomatik rütbələrin verilməsi haqqında sərəncam...

Prezident İlham Əliyev iyulun 8-də Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarına diplomatik rütbələrin verilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının bir neçə əməkdaşı fövqəladə və səlahiyyətli səfir, birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi rütbəsi ilə təltif olunublar.

## "Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununda və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə fərmanlar...

Prezident İlham Əliyev "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında fərman imzalayıb.

Eləcə də, dövlət başçısı "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə fərman imzalayıb.

## İki ölkə ilə bağlı sərəncamlar...

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" sərəncamda dəyişiklik edilməsi barədə sərəncam imzalayıb.

Dövlət başçısı həm də Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texniki əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında sərəncam imzalayıb.








# Azərbaycan ilə İordaniya arasında vizasız rejim...

## İki ölkə arasında yeni sazişlər imzalanıb

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda səfərdə olan İordaniya Haşimilər Krallığının Baş nazirinin müavini, xarici işlər və mühacir məsələləri naziri Əymən Əs-Safadi ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüş zamanı Azərbaycan-İordaniya münasibətlərinin siyasi, iqtisadi, ticarət, humanitar və digər əməkdaşlıq sahələri üzrə mövcud vəziyyəti və perspektivləri, habelə regional və beynəlxalq gündəlikdə duran məsələlər müzakirə olunub.

Tərəflər ikitərəfli hüquqi bazanın genişləndirilməsinin, eləcə də ikitərəfli əməkdaşlığın daha sistemli inkişafını təmin etmək məqsədilə Azərbaycan-İordaniya Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Birgə Komissiyasının imkanlarından daha səmərəli istifadə edilməsinin vacibliyini vurğulayıblar.

Səfər çərçivəsində nazirlər Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında adi pasport sahibləri üçün viza tələblərinin qarşılıqlı ləğv edilməsi haqqında Sazişi, həmçinin Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə İordaniya Haşimilər Krallığının Enerji və Mineral Ehtiyatlar Nazirliyi arasında energetika sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunu imzalayıblar.

Nazirlər, həmçinin Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə daxil olmaqla çoxtərəfli platformalar çərçivəsində əməkdaşlığı nəzərdən keçirərək, qarşılıqlı etimad və dəstəyə əsaslanan tərəfdaşlıqdan məmnunluqlarını ifadə ediblər.

Regional məsələlərə dair müzakirələr zamanı nazirlər Yaxın Şərqdəki təhlükəsizlik vəziyyətini nəzərdən keçiriblər. Onlar mövcud böhranın yalnız siyasi və diplomatik vasitələrlə həll oluna biləcəyini vurğulayaraq, davam edən dialoq və danışıqlar prosesinə dəstəklərini ifadə ediblər.

Ceyhun Bayramov həmkarına Azərbaycan-Ermənistan normallaşma prosesi, o cümlədən ötən ilin avqust ayında keçirilmiş tarixi Vaşinqton Sammiti zamanı əldə olunmuş razılaşmalar və sülh prosesinin hazırkı vəziyyəti barədə ətraflı məlumat verib.

Nazirlər, həmçinin Azərbaycanın azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı yenidənqurma və bərpa işləri, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı və mina təhlükəsinin yaratdığı çətinliklər ətrafında fikir mübadiləsi aparıblar.

Daha sonra Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və İordaniya Haşimilər Krallığının Baş nazirinin müavini, xarici işlər və mühacir məsələləri naziri Əymən Əs-Safadinin iştirakı ilə mətbuat konfransı keçirilib. Mətbuat konfransında çıxış edən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, İordaniya ilə Azərbaycan arasında uzun illərdir davam edən münasibətlərin inkişafında ölkə liderlərinin rolu böyükdür. Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundunun keçirildiyini diqqətə çatdıran nazirin sözlərinə görə, həmkarı ilə görüşdə qarşılıqlı ikitərəfli münasibətlərə dair məmnunluq ifadə olunub.




Ceyhun Bayramov deyib ki, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə xüsusi münasibətləri mövcuddur. Bu əməkdaşlıq çərçivəsində son illərdə Orta Dəhlizin əhəmiyyəti daha da artıb ki, bu da İordaniyadan olan investorlar üçün cəlbedici imkanlar yarada bilər. O bildirib ki, ötən ilin avqust ayından etibarən Azərbaycanın enerji resurslarının ixrac coğrafiyası genişlənib. Belə ki, ölkəmizdən Suriyaya enerji resurslarının ixracına başlanılıb. Bu isə İordaniya ilə qonşu olan ölkəyə tədarüklərin həyata keçirilməsi baxımından yeni əməkdaşlıq və investisiya imkanları yaradır.

XİN başçısı həmçinin qeyd edib ki, Azərbaycanın müxtəlif qurumlarından ibarət nümayəndə heyəti İordaniyaya səfər edəcək. Nazir bildirib ki, ölkələrimiz arasında biznes-forumlarının da keçirilməsi faydalı ola bilər. Nazir bildirib ki, ölkələrimiz arasında turizm sektorunun inkişaf etdirilməsi önəmlidir. May ayının sonundan İordaniyaya müntəzəm reyslər başlanılıb. Bu reyslərin sayının artırılmasını da müzakirə etdik. Nazir bildirib ki, beynəlxalq və regional təşkilatlar səviyyəsində də faydalı əməkdaşlıq mərhələləri müzakirə edilib.

C.Bayramov vurğulayıb ki, dünyanın müxtəlif bölgələrində qeyri-sabitliyin davam etdiyi ərazilər mövcuddur. Bu baxımdan Azərbaycan vətəndaşları xarici ölkələrə səfər edərkən risk amillərini nəzərə almalı, hər hansı fövqəladə hadisə baş verdiyi təqdirdə olduqları ölkənin və ya ərazinin rəsmi qurumlarının xəbərdarlıqlarına əməl etməlidirlər. Onun sözlərinə görə, son illərdə bu cür problemlərlə üzləşən 600-ə yaxın Azərbaycan vətəndaşının yeri müəyyənləşdirilərək onların ölkəyə qaytarılması təmin olunub. Hazırda da bu istiqamətdə işlər davam etdirilir.

Nazir qeyd edib ki, müxtəlif regionlarda hərbi münaqişələrdə iştirak edən Azərbaycan vətəndaşlarına rast gəlinir. Bəzi hallarda şəxslər müxtəlif vədlərlə bu cür münaqişələrə cəlb olunurlar. Bir daha xatırlatmaq istərdik ki, xarici ölkələrdə silahlı münaqişələrdə iştirak etmək Azərbaycan qanunvericiliyinə ziddir. Hətta bu cür hallar Azərbaycan vətəndaşlığından məhrum edilmə ilə də nəticələnə bilər.

Mətbuat konfransında çıxış edən İordaniya Haşimilər Krallığının Baş nazirinin müavini, xarici işlər və mühacir məsələləri naziri Əymən Əs-Safadi deyib ki, Azərbaycan və İordaniya arasında imzalanmış saziş əməkdaşlığın genişləndirilməsinə müsbət təsir edəcək. Ticarət, investisiya və turizm sahələrində əlaqələrimiz daha da inkişaf edəcək. İordaniyalı nazir Ermənistanla əldə olunan razılaşmaya görə Azərbaycanı təbrik edib. O, Azərbaycanla Ermənistan arasında paraflanmış sənədi dəstəklədiklərini bildirib.

Əymən Əs-Safadi qeyd edib ki, Azərbaycanla İordaniya qarşılıqlı investisiyalar sahəsində də əməkdaşlıq edəcək. O bildirib ki, biz bu sahədə də əlaqələrimizi gücləndirmək niyyətindəyik.

# Praqmatik və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq modeli



Azərbaycan-ABŞ münasibətləri son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyaraq regional və qlobal proseslərin mühüm komponentinə çevrilməkdədir. Xüsusilə Bakının Cənubi Qafqazda formalaşdırdığı yeni iqtisadi, siyasi və təhlükəsizlik reallıqları Vaşinqtonun bölgəyə baxışını əhəmiyyətli dərəcədə dəyişib. Prezident İlham Əliyevin ABŞ-ın müstəqilliyinin 250 illiyi münasibətilə Prezident Donald Trampa ünvanladığı məktubda vurğulanan məqamlar, eləcə də dövlətimizin başçısının Mayamidə keçiriləcək G20 Liderlər Sammitinə dəvət olunması ABŞ-Azərbaycan əlaqələrinin yüksələn xətlə inkişafının göstəricisidir.

**Qarşılıqlı səfərlər artır**

Son zamanlar Vaşinqtonda Bakıya gerçəkləşən səfərlər də artmaqdadır. Məsələn, bir müddət öncə Prezident İlham Əliyevin ABŞ Nümayəndələr Palatasının üzvü Abraham Hamadehi qəbul etməsi bu prosesin tərkib hissəsi idi. Görüş zamanı ikitərəfli münasibətlərin uğurlu inkişafı, Strateji Tərəfdaşlıq Xartiyasının əhəmiyyəti və əməkdaşlığın perspektivləri müzakirə olunub. Xüsusi diqqət Hamadehin Azadlığa Dəstək Aktının 907-ci düzəlişinin ləğvi ilə bağlı qanun təşəbbüsünün müəlliflərindən biri olmasına yönəlib. Bu, ABŞ siyasi dairələrində Azərbaycana münasibətdə daha praqmatik və realist yanaşmanın gücləndiyini göstərən mühüm siqnal idi. İyulun 7-də isə dövlətimizin başçısı ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, Avropa və Regional Təhlükəsizlik Əməkdaşlığı üzrə Alt Komitəsinin sədri, senator Stiv Deynsi qəbul edib. Görüşdə Prezident İlham Əliyev Donald Trampla şəxsi münasibətlərinin yüksək səviyyədə olduğunu deyərək, Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasında onun xüsusi rol oynadığını vurğulayıb. Senator Stiv Deyns isə öz növbəsində son dövrlərdə ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini deyib, Azərbaycan Prezidentinin ötən ilin avqustunda Vaşinqtona səfərinin əlamətdar hadisə olduğunu söyləyib. Qonaq, eyni zamanda, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın geosiyasi səviyyədə mühüm rolunu qeyd edib.

**Ceyhun Bayramov senator Stiv Deynslə görüşüb**

Yeri gəlmişkən, xarici işlər naziri Ceyhun Bayramov da ABŞ Senatının üzvü, senator Stiv Deynslə görüşüb. Görüş zamanı, Azərbaycan-ABŞ strateji tərəfdaşlıq münasibətlərinin cari vəziyyəti və inkişaf perspektivləri, siyasi və iqtisadi əməkdaşlıq gündəliyi, enerji təhlükəsizliyi, regional bağlantı layihələri, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Tərəflər iki ölkə arasında yüksək səviyyəli təmasların və siyasi dialoqun inkişaf etdirilməsinin qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğulayıblar. Tərəflər Azərbaycanın enerji təhlükəsizliyi, nəqliyyat və logistika sahələrində etibarlı tərəfdaş kimi artan rolundan bəhs edərək, Orta Dəhliz, Şərq-Qərb nəqliyyat marşrutlarının inkişafı istiqamətində həyata keçirilən təşəbbüslər barədə fikir mübadiləsi aparıblar.

Regional bağlantı və iqtisadi əməkdaşlıq məsələlərinin müzakirəsi zamanı Ceyhun Bayramov Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığının dinamik inkişaf etdiyini, bu çərçivədə C6 əməkdaşlıq formatının yeni imkanlarını qeyd edib. Xəzər dənizi vasitəsilə Şərq-Qərb bağlantılarının möhkəmləndirilməsi, Orta Dəhlizin inkişafı, eləcə də Ələt Beynəlxalq Dəniz Ticarət Limanı və ətrafında yaradılan logistika və sənaye infrastrukturu sayəsində Azərbaycanın Avrasiyanın mühüm nəqliyyat və ticarət qovşaqlarından birinə çevrildiyi vurğulanıb.

Tərəflər postmünaqişə dövründə Cənubi Qafqazda mövcud vəziyyət, Azərbaycan-Ermənistan normallaşma prosesi və sülh gündəliyini nəzərdən keçiriblər. Görüş zamanı, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri, habelə bölgədə nəqliyyat və kommunikasiya xətlərinin açılmasının regional əməkdaşlıq və iqtisadi inteqrasiya üçün yaratdığı imkanlar barədə qarşı tərəfə ətraflı məlumat verilib.

Əslində, son bir ildə ABŞ Konqresinin müxtəlif nümayəndə heyətlərinin Azərbaycana səfərləri, yüksək səviyyəli təmasların intensivləşməsi və ikitərəfli əməkdaşlıq gündəliyinin genişlənməsi Vaşinqtonun region siyasətində yeni reallıqları qəbul etdiyini nümayiş etdirir. Əgər əvvəlki dövrdə ABŞ-ın regiona münasibəti daha çox normativ və vasitəçi yanaşma üzərində qurulurdusa, hazırkı mərhələdə bu münasibətlər praqmatik, işgüzar və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq modelinə transformasiya olunmaqdadır. Azərbaycanın müstəqil xarici siyasət kursu, regional liderlik statusu və xüsusilə postmünaqişə dövründə ortaya qoyduğu sülhpərvər, konstruktiv mövqe ABŞ üçün ölkəmizi Cənubi Qafqazda etibarlı tərəfdaş kimi ön plana çıxarıb. Bakı yalnız enerji ixracatçısı və tranzit ölkə kimi deyil, həm də regional təhlükəsizliyin təmin olunmasında, beynəlxalq sülh təşəbbüslərinin irəli aparılmasında mühüm aktor kimi qəbul edilir. Məhz bu reallıqlar fonunda Vaşinqtonun Azərbaycanla münasibətləri yeni məzmunla zənginləşir. Nəzərə alaq ki, Cənubi Qafqazda sülhün təmin olunması Tramp administrasiyasının xüsusi diqqət mərkəzindədir. Ötən ilin avqustunda imzalanan Vaşinqton razılaşması da bunun bariz göstəricisidir.

Prezident İlham Əliyevin ABŞ-ın müstəqilliyinin 250 illiyi münasibətilə Prezident Donald Trampa ünvanladığı məktubda vurğuladığı kimi, son dövrdə Azərbaycan-Birləşmiş Ştatlar münasibətlərinin yüksələn xətlə və uğurla inkişaf etməsi məmnunluq doğurur. Dövlətimizin başçısı məktubda iki ölkə arasında təşəkkül tapmış strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirib. Məktubda Prezident İlham Əliyev fevral ayında imzalanan və münasibətlərimizi keyfiyyətcə yeni mərhələyə qaldıran Strateji Tərəfdaşlıq Xartiyasının əhəmiyyətini xüsusi qeyd edib.

**Mühüm siyasi hadisə...**

Ötən ilin avqustunda əldə olunan Vaşinqton razılaşmaları isə Azərbaycanın regionda rolunun və təşəbbüslərinin ABŞ tərəfindən yüksək dəyərləndirildiyini sübut edir. ABŞ Prezidenti Donald Trampın Azadlığa Dəstək Aktına 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması barədə memorandumu şəxsi qeydi və xoş sözləri ilə birlikdə Azərbaycan Prezidenti İlham Əliyevə xatirə hədiyyəsi olaraq göndərməsi də bunun əyani nümunəsidir. Bu fakt Ağ Ev rəhbərinin dövlətimizə və onun liderinə böyük ehtiramının ifadəsidir.

Bu ilin fevralında ABŞ-ın vitse-prezidenti Vensin ölkəmizə səfəri, Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın imzalanması ölkələrimiz arasında münasibətlərimizin yeni mərhələyə keçməsinin göstəricisidir. Bundan əlavə, Prezident Donald Trampın "Bakı Enerji Həftəsi"nin iştirakçılarına məktub göndərməsi, ABŞ Dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orrun Bakı Enerji Forumunun açılışında iştirak etməsi də mühüm faktlardır. İyunun 2-də Bakıda Azərbaycan-ABŞ İqtisadi Dialoqunun ilk iclasının keçirilməsi də ikitərəfli əməkdaşlığın inkişafına böyük töhfələr verəcək. Xüsusilə, ABŞ Prezidenti tərəfindən dövlətimizin başçısının Mayamidə keçiriləcək G20 Liderlər Sammitinə dəvət olunması Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyinin güclənməsini təsdiqləyən mühüm siyasi hadisədir. Bu fakt Azərbay-

# Beynəlxalq investorların Azərbaycana marağı artır

## Güclü sabitlik, təhlükəsizlik və hüquqi-iqtisadi təminatlar xarici investorların ölkəmizə olan etimadını yüksəldir

"Montfort Eurasia" şirkəti dünyanın aparıcı investorlarının müxtəlif regionlara və ölkələrə olan maraq indeksinə dair hesabatını açıqlayıb. Hesabata əsasən, Böyük Britaniya və ABŞ-da fəaliyyət göstərən iri sərmayədarların 66,3 faizi bu regionlara maraq göstərir. Şirkətin icraçı direktoru Eleanor Kramers bildirib ki, investorlar region ölkələrində hökm sürən ictimai-siyasi vəziyyəti və həmin ölkələrin sərmayə reytinqini nəzərə alaraq kapital qoyuluşlarına daha çox üstünlük verirlər. Yatırılan sərmayənin təhlükəsizliyinin təmin olunması güclü sabitliyə əsaslandığından ilk növbədə, bu faktora diqqət yetirilir. Eyni zamanda, ölkələrin dinamik iqtisadi inkişafı və həyata keçirilən islahatlar da sərmayədarlar üçün vacib amillərdən biri kimi çıxış edir.

"Montfort Eurasia" şirkətinin analitik qrupu beynəlxalq investorların Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarına artan marağına da diqqət çəkərək vurğulayırlar ki, həmin bölgədə sərmayə qoyuluşları fəallığı artmaqdadır. Bu regionlarda həyata keçirilən beynəlxalq əhəmiyyətli nəqliyyat və enerji layihələri sərmayədarların əsas maliyyə yatırımlarında xüsusi yer alır. Eləcə də bərpaolunan enerji, rəqəmsal texnologiyalar, innovasiya ekosistemi xarici investorlar üçün maraq kəsb edir və hazırda qeyd edilən region ölkələrində yeni maliyyələşmə planları nəzərdə tutulur.



**2004-2025-ci illərdə iqtisadiyyata 350 milyard dollar sərmayə qoyulub**

Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanda təmin edilmiş əlverişli sərmayə iqlimi xarici investorlar üçün mühüm əhəmiyyət kəsb edir. Ötən illərdə möhkəm siyasi sabitliyi gücləndirən Azərbaycan xarici investorlarla əməkdaşlığa xüsusi önəm vermiş, dünyanın aparıcı şirkətləri ilə birlikdə həm ölkəmiz, həm də region üçün mühüm əhəmiyyət kəsb edən layihələrə imza atıb. Həyata keçirilmiş sosial-iqtisadi islahatlar və qlobal iqtisadiyyata inteqrasiya aparıcı beynəlxalq şirkətlər üçün ölkəmizdə geniş və əlverişli imkanlar yaradıb.

Ötən illərdə yerli və xarici sərmayəçilərin fəaliyyətini təmin edən güclü hüquqi-iqtisadi təminatlar yaradılıb. İnvestorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, "İnvestisiya fəaliyyəti haqqında" və "Xarici investisiyaların qorunması haqqında" qanunların qəbul edilməsi, Rəqabət Məcəlləsinin qüvvəyə minməsi sərmayə cəlbediciliyini artırıb.

Azərbaycan hökumətinin bir sıra xarici ölkələrlə ikiqat vergi tutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalaması da investisiya qoyuluşunu təşviq etməkdədir. Azərbaycan beynəlxalq müstəvidə ikitərəfli əməkdaşlıq çərçivəsində 30-dək ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalayıb ki, həmin dövlətlərin investorlarının ölkəmizin iqtisadiyyatında potensial sərmayədar kimi xüsusi payı artmağa başlayıb.

Prezident İlham Əliyevin 2018-ci il yanvarın 18-də imzaladığı "İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamı ölkə iqtisadiyyatına investisiya axını üçün yeni mərhələ açıb. Bu ssenariyə uyğun olaraq biznes mühitinin əlverişliliyinin daha da artırılması və biznesə başlama prosedurlarının sadələşdirilməsi üçün zəruri tədbirlər görülüb ki, bu da xarici sahibkarların fəaliyyətində yeni mərhələnin başlanmasına səbəb olub.

Beləliklə, qeyd edilən təşviqedici tədbirlər, dövlətin xarici investorlara olan dəstəyi sayəsində 2004-2025-ci illər ərzində iqtisadiyyatımıza 350 milyard dollar həcmində sərmayə qoyulub, onun əhəmiyyətli hissəsi və ya 220 milyard dolları qeyri-neft sektorunun inkişafına yönəlmişdir. Bu, xarici investorların Azərbaycana olan etimadı, ölkəmizdə hökm sürən təhlükəsizlik və sabitlik mühitinin bariz göstəricisidir.

**Ölkəmizdə minlərlə xarici kapitallı şirkət fəaliyyət göstərir**

Hazırda Azərbaycanda minlərlə xarici kapitallı şirkət fəaliyyət göstərir. Bu, ölkəmizdə müasir korporativ idarəetməyə əsaslanan, rəqabətli və dayanıqlı iqtisadiyyatın formalaşmasına mühüm töhfədir. Əldə edilmiş etimad sayəsində əksər xarici şirkətlər bu gün də mənfəətlərini ölkə iqtisadiyyatına təkrar investisiya etməyi seçirlər.

Ölkəmizin ərazi bütövlüyü təmin olunandan sonra Azərbaycanın səyləri ilə regionda uzunmüddətli sülh, sabitlik və dayanıqlı inkişafın əsası qoyuldu. Hazırda Azərbaycan xarici siyasətində artıq iqtisadi diplomatiyaya üstünlük verərək diqqətini yeni əməkdaşlıq əlaqələrinin qurulmasına, qeyri-neft sahələrinin, xüsusilə də ölkənin turizm potensialının daha da güclənməsinə istiqamətləndirir.

Azərbaycanın əlverişli coğrafi mövqeyi ölkəmizi regional iqtisadi siyasətin strateji mərkəzinə çevirir. Orta Dəhliz üzrə tranzit yük daşımalarının həcmi ildən-ilə artır. Gələcək illərdə, xüsusilə də Zəngəzur koridorunun işə düşməsi ilə bu göstəricinin daha da artması gözlənilir. Ölkədə yaradılmış müasir infrastruktur, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası və müasir dəmir yolu infrastrukturu sərmayədarlara qlobal bazarlara birbaşa çıxış və yüksək tranzit səmərəliliyi təklif edir. Eyni zamanda xüsusi iqtisadi zonalar, müasir nəqliyyat və rəqəmsal infrastruktur istehsal, logistika, bərpaolunan enerji, rəqəmsal xidmətlər və yüksək dəyərli kənd təsərrüfatı üçün hazır platformalar təqdim edir.



**Azərbaycanın investisiya reytinqi yüksəlib**

Azərbaycanda həyata keçirilən məqsədyönlü iqtisadi islahatlar, əlverişli hüquqi və institusional mühitin formalaşdırılması, qanunun aliliyinin təminatı, hökm sürən siyasi sabitlik və sərmayələrin qorunması Azərbaycanın yürütdüyü siyasətin fundamental amili rolunda çıxış edir və investorlar üçün uzunmüddətli etimad mühiti yaradır. Ölkəmizdə reallaşdırılan uğurlu sosial-iqtisadi inkişaf strategiyasının nəticələri "Moody's", "Fitch Ratings" kimi beynəlxalq reytinq agentliklərinin son hesabatlarında da təsdiqini tapır, ölkəmizin kredit reytinqi yüksəlir. "Standart & Poor's" və "Moods" reytinq agentlikləri cari ildə Azərbaycanın investisiya və kredit reytinqini artıraraq "BB+" səviyyəsinə qaldırıb. "Fitch Ratings" agentliyi Azərbaycanın yerli və xarici valyutada uzunmüddətli suveren investisiya reytinqini "pozitiv" proqnozu ilə "BBB" səviyyəsində təyin edib. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan inkişaf etmiş ölkə kimi dünyanın aparıcı investitorlarının daim diqqət mərkəzindədir.

Beynəlxalq Valyuta Fondu (BVF) dünya ölkələrində investisiya cəlbediciliyi mühiti ilə bağlı 2024-cü ilə dair hesabatında Azərbaycanı ən yaxşı ölkələr qrupunda qərarlaşdırıb. Belə ki, ölkəmiz ən yaxşı investisiya mühitinə malik "Top-7"qrupunda yer alıb. BVF-nin reytinqində xarici investorlar üçün əlverişli münbit iş şəraitinin yaradılması, bütün hüquqi təminatlarla əhatə olunması təqdir edilir.

Hazırda Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin sayı 7 mindən artıqdır. Təkcə 2024-cü ildə Azərbaycanda qeydiyyata alınmış kommersiya hüquqi şəxslərin təxminən 900-ü xarici investisiyalı şirkətlər olub.

**Azad ərazilərdə sərmayəçilər üçün güzəştlər**

Azərbaycanın müasir inkişaf gündəliyində əsas investisiya sahələri kimi süni intellekt, rəqəmsal texnologiyalar və "yaşıl enerji"yə investisiya cəlb olunması əsas strateji xətt kimi müəyyən edilib. Son 4 ildə dünyanın ən nüfuzlu şirkətləri, investisiya holdinqləri ilə bərpaolunan enerji sahəsində dəyəri 2 milyard dollardan artıq olan sazişlər imzalanıb. Digər sərmayədarlarla "yaşıl enerji" layihələrinə kapital axınları barədə səmərəli danışıqlar davam etdirilir.

Resurs zənginliyi ilə diqqəti cəlb edən işğaldan azad edilmiş ərazilərə də xarici investorların marağı böyükdür. Bu bölgədə çoxsaylı iqtisadi stimullar, güzəştlər tətbiq olunmaqdadır. Dövlət başçısının "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" sərəncamına əsasən, azad ərazilərdə uçotda olan və fəaliyyət göstərən sahibkarlıq subyektləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətinə mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən, eləcə də sosial vergilərdən azad olunublar ki, bu amil həmin bölgəyə xüsusi axınları sürətləndirəcək.

*ELBRUS CƏFƏRLİ*

**Beynəlxalq Nəqliyyat Forumunun hesabatına əsasən, Azərbaycan yüksək investisiya səviyyəsinə malikdir**

# 32 ölkə arasında 1-ci yerdə

Hazırda Azərbaycan inkişafın elə bir yüksək səviyyəsinə çatıb ki, ölkəmizin ayrı-ayrı istiqamətlərdə müəyyənləşdirdiyi standartlar dünyada nümunə kimi qəbul edilir. O cümlədən respublikamızda Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi sayəsində mükəmməl nəqliyyat-logistika infrastrukturunun qurulması və bununla da həm daxili, həm də tranzit daşımaları üçün əlverişli şəraitin yaradılması beynəlxalq səviyyədə yüksək dəyərləndirilir.

Beynəlxalq Nəqliyyat Forumunun (BNF) son dəyərləndirməsi buna əyani misaldır. Qurum nəqliyyat infrastrukturuna investisiya yatırılması ilə bağlı 32 ölkə arasında araşdırma aparıb və Statistik Məlumat Bülleteni dərc edib. Hesabata əsasən, Azərbaycan bu sahəyə yönəldilən investisiyaların ÜDM-də payına görə birinci yerdə qərarlaşıb.

## Artan qlobal gərginliklər fonunda diqqət Azərbaycana yönəlir

Hazırda beynəlxalq səviyyədə yaranan ən mühüm çağırışlardan biri nəqliyyat marşrutları və daşımalarla bağlıdır. Bu gün artan geosiyasi gərginliklər səbəbindən beynəlxalq nəqliyyat marşrutları heç də təhlükəsiz deyil. Son olaraq Hörmüz boğazı ilə bağlı izlənilən proseslər, qlobal iqtisadiyyat üçün mühüm əhəmiyyət daşıyan dar keçidin siyasi təzyiq alətinə çevrilməsi bütövlükdə dünyanı ciddi sınaq qarşısında qoyub. Müşahidə edilən bu kimi kataklizmlər, xüsusilə də Yaxın Şərqdə, daha əvvəl Qırmızı dənizdə baş verənlər, Rusiya-Ukrayna müharibəsinin uzanması regionda və qlobal miqyasda ölkələri, daşıma şirkətlərini alternativ nəqliyyat-logistika marşrutları axtarmaq məcburiyyətində qoyub. Daha təhlükəsiz və iqtisadi baxımdan səmərəli marşrutların önəmi heç vaxt olmadığı qədər artıb.

Belə, heç də adi olmayan bir şəraitdə nəzərlər həm də Azərbaycana dikilib. Bu, bir tərəfdən respublikamızın Avrasiyada son dərəcə əlverişli coğrafi mövqedə yerləşməsi, uzunmüddətli daxili sabitliyə malik olması, cəmiyyətdə tolerantlıq mühitinin hökm sürməsi, digər tərəfdən isə geniş nəqliyyat-logistika imkanları təqdim etməsi ilə bağlıdır. Prezident İlham Əliyev son 22 ildə ölkəmizin əlverişli coğrafi mövqeyini nəzərə almaqla strateji baxış nümayiş etdirərək qeyd olunan sahənin inkişafına həssas yanaşma sərgiləyib. Onun qətiyyətli siyasi iradəsi ilə ölkə boyunca böyük həcmlərdə investisiya qoyuluşu hesabına çoxsaylı nəqliyyat-logistika layihələri uğurla icra olunub və respublika ərazisindən keçən bütün marşrutlar üzrə tranzit daşımalarının optimal vaxt rejimində səmərəli şəkildə həyata keçirilməsinə geniş imkanlar yaradılıb. Tam qətiyyətlə deyə bilərik ki, hazırda Azərbaycan Avrasiyanın əvəzolunmaz nəqliyyat-logistika mərkəzinə çevrilib ki, bu da respublikamızın regional və qlobal miqyasda önəmini artıran çox mühüm amillərdən biri qismində çıxış edir.



BNF-nun təqdim etdiyi hesabatda da Azərbaycanın ölkə ərazisində nəqliyyat-logistika infrastrukturuna böyük həcmlərdə investisiyalar yönəltməsinə xüsusi diqqət çəkilib. Bildirilib ki, 2022-2024-cü illər üzrə Azərbaycanın daxili nəqliyyat infrastrukturuna investisiyaları ÜDM-in orta hesabla 3,5 faizini təşkil edib. Azərbaycan, Çin, Şimali Makedoniya, Serbiya kimi ölkələr ÜDM-in 2




faizdən çoxunu nəqliyyat infrastrukturuna yönəldərək beynəlxalq standartlara uyğun nəqliyyat şəbəkələrinin qurulması və genişləndirilməsi mərhələsindədir.

Azərbaycanda Beynəlxalq Nəqliyyat Forumunun hesabatında da yüksək qiymətləndirilən müasir nəqliyyat-logistika infrastrukturu quruculuğundan bəhs edərkən ölkəmizdə bu sahəyə kompleks yanaşma sərgiləndiyinin önəminə xüsusi diqqət çəkilməlidir. Hesabatda 2024-cü ilədək olan dövrün statistikasına istinad olunub. Respublikamızda 2004-cü ildən başlayaraq həmin tarixədək olan dövrdə nəqliyyat-logistika sahəsində reallaşdırılan layihələr müxtəlif istiqamətləri - avtomobil yollarını, dəmiryolunu, su və hava nəqliyyatını əhatə edib.

Azərbaycanın 2004-2024-cü illərdə məqsədyönlü şəkildə həyata keçirdiyi müasir nəqliyyat infrastrukturu quruculuğu siyasətinin konkret nəticələrini bütün ölkə boyunca avtomobil yollarının yenilənməsinin timsalında aydın şəkildə görmək mümkündür.

## Müasir nəqliyyat infrastrukturunun yaradılmasına kompleks yanaşma

Bütövlükdə, ölkəmizdə avtomobil yollarının yenidən qurulması ilə bağlı statistika kifayət qədər zəngindir. Belə ki, bəhs olunan dövrdə ölkə ərazisində təxminən 20 min kilometr uzunluğunda avtomobil yolları tikilib və yaxud əsaslı şəkildə yenidən qurulub.

Respublikamızda dəniz nəqliyyatının inkişafı xüsusi diqqət mərkəzində saxlanılıb. Bu gün Azərbaycan Xəzərdə ən böyük daşıma donanmasına malikdir. Burada əlamətdar məqamlardan biri də ondan ibarətdir ki, Azərbaycan nəqliyyat imkanlarını ölkə hüdudlarından kənara çıxarmağı bacarıb. Qara dənizdə daşımalar həyata keçirmək üçün üç böyük tanker alınıb. Onların hər biri 115 min ton yükgötürmə qabiliyyətinə malikdir. Xarici sularda Azərbaycan bayrağı altında üzən gəmilər "Aframax" tipli tankerlərdir. İndiyə qədər Azərbaycan gəmiçilik tarixində istismar edilən ən böyük tanker 13 min ton dedveytə malik olub. Beləliklə, həmin gəmilərdən təxminən 10 dəfə böyük olan "Aframax" tipli tankerlərin alınması ilə Azərbaycan gəmiçiliyi yeni dövrə qədəm qoyub.

Bu gün artan geosiyasi gərginliklər və digər səbəblərə görə dövlətlər arasında ənənəvi təchizat zənciri qırılıb. Bir sıra hallarda istehsalçı ölkələr öz məhsullarının satışını da siyasi təzyiq vasitəsinə çevririrlər. Bu, dəniz nəqliyyatı donanmalarının təchizatına da aiddir. Azərbaycan bu sahədə də Prezident İlham Əliyevin zamanında nümayiş etdirdiyi strateji baxışları, siyasi qətiyyəti sayəsində qabaqlayıcı tədbirlər görməyə nail olub. Söhbət ölkəmizdə gəmiqayırma zavodunun yaradılmasından gedir. Bəhs olunan müəssisənin açılış mərasimi dövlətimizin başçısının iştirakı ilə 20 sentyabr 2013-cü ildə baş tutub. İstehsalat Xəzər dənizində ən müasir tələblərə cavab verən istənilən növ müxtəlif təyinatlı gəmilərin tikintisi, təmiri və ümumilikdə, dəniz mühəndisliyi işlərinin yerinə yetirilməsi istiqamətində fəaliyyət göstərir.

Reallaşdırılan çoxsaylı layihələr sayəsində respublikamızda dəmir yolu şəbəkəsinin texniki imkanları və keyfiyyət göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşıb, texnika parkı modernləşib. Müvafiq Dövlət Proqramının icrası çərçivəsində çoxsaylı layihələr reallaşdırılıb. Bu çərçivədə Bakı-Böyük Kəsik istiqamətində 355 km yol əsaslı təmir olunub və 800 metrlik uzunölçülü relslərlə (pletlərlə) əvəzlənib. 2015-ci ilin sentyabrında yenidən qurulan Bakı-Sumqayıt dəmir yolu xətti ilə Azərbaycanda ilk "Stadler" qatarı yola düşüb. 2019-cu ildə Bakı-Sabunçu və Sabunçu-Pirşağı xətləri istifadəyə verilib. 2020-ci il martın 18-də isə Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin açılışı ilə Abşeron dairəvi xətti tam istismara verilib. Abşeron dairəvi xəttinin uzunluğu 91 kilometr, stansiya yolları ilə birlikdə ümumi uzunluğu isə 198 kilometrdir. Bu yol Bakının və Abşeron yarımadasının ən önəmli nəqliyyat layihələrindən birinə çevrilib.

Bundan başqa, işğaldan azad olunmuş ərazilərdə quruculuq işləri çərçivəsində ən zəruri infrastruktur yaradılması ilə bağlı Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən dəmir yollarının tikintisi işləri də qrafik üzrə davam etdirilir. Bu sırada uzunluğu 140,6 km olan Horadiz-Ağbənd dəmir yolu xəttinin tikintisini xüsusi qeyd edə bilərik. Bundan başqa, Bərdə-Ağdam dəmir yolunun bərpası istiqamətində də mühüm işlər görülüb və yeni layihələr də gündəmdədir.

Həmçinin respublikamızda 10-dək aeroportun inşası təmin edilib. Hazırda ölkənin regionlarında da beynəlxalq səviyyəli hava limanları fəaliyyət göstərir. Füzulidə, Zəngilanda və Laçında olmaqla daha 3 beynəlxalq səviyyəli hava limanı isə işğaldan azad olunmuş ərazilərdə yaradılıb.

## Üç beynəlxalq dəhlizin fəal üzvü

Avropa ilə Asiya arasında ən optimal və təhlükəsiz marşrutlar sayılan Şərq-Qərb, Şimal-Cənub dəhlizləri və Transxəzər (Orta Dəhliz) marşrutu məhz respublikamızın ərazisindən keçir. Bəhs olunan dəhlizlərdə Avrasiyanın müxtəlif dövlətləri təmsil olunurlar. Azərbaycan isə yeganə ölkədir ki, hər üç marşrutun fəal üzvüdür və onların inkişafına müstəsna töhfələr verir.

Azərbaycanın nəqliyyat-logistika imkanlarını artıraraq Avrasiyanın mühüm nəqliyyat hablarından birinə çevrilməsindən bəhs edərkən ölkəmizin liderliyi ilə inşa olunan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun və Xəzərdə ən böyük Bakı Beynəlxalq Dəniz Ticarət Limanının önəmini ayrıca qeyd edə bilərik. Şərq-Qərb marşrutunun və Orta Dəhlizin funksionallığının artmasında mühüm rol oynayan Bakı-Tbilisi-Qars dəmir yolu xətti məhz Azərbaycanın moderatorluğu ilə inşa olunaraq 2017-ci ildə istifadəyə verilib. Bakı-Tbilisi-Qars dəmir yolu Avropa ilə Asiyanın dəmir yolları şəbəkələrinin birləşdirilməsini təmin edib. Layihəyə əsasən, polad magistralla növbəti illərdə 17 milyon ton və daha çox yük daşınması nəzərdə tutulur. Artan yük həcmləri nəzərə alınmaqla yenə də ölkəmizin təşəbbüsü ilə BTQ-nin ötürücülük imkanlarının genişləndirilməsi üzrə layihə də artıq yekunlaşıb.




Beynəlxalq dəhlizlərin potensialı dəmir yolları ilə yanaşı, limanların yükaşırma qabiliyyəti ilə də sıx bağlıdır. Bu baxımdan, Xəzər dənizində ən böyük ticarət limanlarından biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin ildə 15 milyon tondan 25 milyon tona qədər artırılması üzrə layihə də fəal iş aparılır. Bakı Beynəlxalq Ticarət Limanının birinci fazasının illik yükdaşıma qabiliyyəti 15 milyon tondur. Genişləndirmə layihəsi çərçivəsində limanın avtomatlaşdırılması nəticəsində buradan keçən tranzit yüklərin daha sürətli ötürülməsinə imkan yaranacaq.

BNF-nun təqdim olunan hesabatında bu kimi faktlara istinad edilməklə Azərbaycanın uzunmüddətli investisiya dinamikası müsbət qiymətləndirilib. Belə ki, 2012-2014-cü illərlə müqayisədə 2022-2024-cü illərdə nəqliyyat infrastrukturuna investisiyaların ÜDM-də payı 0,6 faiz artıb. Bu, Azərbaycanın son 10 ildə nəqliyyat infrastrukturuna yatırımları davamlı şəkildə artıran ölkələrdən biri olduğunu göstərir.

BNF son 10 ildə dəmir yolu infrastrukturuna yatırılan investisiyaların artımını da təhlil edib. Araşdırmaya görə, 32 ölkədən 20-sində dəmir yoluna ayrılan investisiyaların payı yüksəlib. Azərbaycanın bu sahədəki göstəricisi daha sabit dəyişir. Hesabatdan bir daha aydın olur ki, Azərbaycan yüksək investisiya səviyyəsinə malikdir.

*Mübariz ABDULLAYEV*

# Quru Qoşunlarında əməliyyat təlimi təşkil edilib







2026-cı ilin hazırlıq planına uyğun olaraq Quru Qoşunlarının rəhbərliyi altında Quru Qoşunlarının hərbi hissələrinin iştirakı ilə irimiqyaslı əməliyyat təlimi keçirilir.

Müdafiə Nazirliyindən verilən xəbərə görə, təlimdə komando, motoatıcı, mexanikləşdirilmiş və artilleriya briqadalarının, təminat hərbi hissələrinin şəxsi heyəti ilə yanaşı, səfərbərlik toplanışına cəlb olunan hərbi vəzifəlilər də iştirak edir.

Təlimin ilkin mərhələsində qoşunların döyüşə hazırolma vəziyyətinə gətirilməsi, şəxsi heyətin və texnikanın dəmir yolu vasitəsilə daşınması, hərbi hissələrin avtomobil yolları ilə uzaq məsafələrə, o cümlədən məhdudgörmə şəraitində hərəkəti, əməliyyat və döyüş təyinatı rayonlarının, bilavasitə müdafiə hədlərinin tutulması həyata keçirilib, manevrlər gedişində yüksək təşkilatçılıq nümayiş etdirilib.

Əməliyyat təlimi çərçivəsində eyni vaxtda müxtəlif təlim mərkəzlərində və poliqonlarda hərbi hissələrdə döyüş atışlı taktiki təlimlər və taktiki-xüsusi təlimlər, döyüş atışları keçirilib, təminat tapşırıqları praktiki olaraq işlənib.

Taktiki fəaliyyətlər Vətən müharibəsinin və son dövrlərdə dünyada baş verən silahlı münaqişələrin təcrübəsi nəzərə alınaraq icra edilib, Azərbaycan Ordusunun arsenalında olan müasir pilotsuz uçuş aparatları, radioelektron mübarizə və radiotexniki kəşfiyyat vasitələri, yüksəkdəqiqlikli silah sistemləri kompleks şəkildə tətbiq edilib. Hava və radiotexniki kəşfiyyat tapşırıqlarının, praktiki döyüş atışlarının yerinə yetirilməsində şəxsi heyət yüksək peşəkarlıq nümayiş etdirib.

Təlimin gedişində döyüş fəaliyyətlərinin yeni üsul və metodları sınaqdan keçirilib, komandirlərin müstəqil qərar qəbuletmə səriştələri, şəxsi heyətin yüksək dağlıq və meşəlik ərazilərdə, yaşayış məntəqələrində döyüşaparma bacarıqları və çöl vərdişləri təkmilləşdirilib.

İrimiqyaslı əməliyyat təliminin gedişini izləyən Müdafiə Nazirliyinin rəhbər heyəti birləşmə və bölmələrin döyüş fəaliyyətini müsbət qiymətləndirib. Təlimdə qarşıya qoyulan tapşırıqların tam həcmdə icra edildiyi və təlimin məqsədlərinə nail olunduğu qeyd edilib.

# “OPEC+” ölkələri neft hasilatını artırır

## Təşkilat nəql marşrutlarında yaranmış sabitliyi nəzərə alaraq bazarı tarazlamaq niyyətindədir

“OPEC+” ölkələri (Səudiyyə Ərəbistanı, Rusiya, İraq, Küveyt, Qazaxıstan, Əlcəzair və Oman) neft hasilatı kvotasını gündəlik 188 min barel artırmaq barədə qərar qəbul edib. Təşkilatın iyulun 5-də keçirilən iclasında əldə edilmiş razılığa əsasən, avqust ayından etibarən alyans üzvləri ümumi neft hasilatı kvotasını gündəlik 36 milyon barelə çatdıracaq. Bununla da təşkilata daxil olan ölkələrin mart ayından tətbiq etdiyi aşağı nəql həcmi artırılmaqla əvvəlki kvotaya uyğun olacaq. Artım qrafikinə əsasən, məhdudiyyətlər tamamilə aradan qaldırılacaq və sentyabr ayı üzrə kvotaların yenidən yüksəlməsi istisna edilmir. Alyans üzvləri ilə bərabər, “OPEC” ölkələrinin də hasilatı öz kvotalarına uyğun artırması gözlənilir. Belə ki, ABŞ və İran arasında imzalanmış memorandumdan sonra Fars körfəzi ölkələri hasilatı əhəmiyyətli dərəcədə artırmaqdadır. Beləliklə, qlobal neft tədarükündə əsas rol oynayan “OPEC” və “OPEC+” ölkələri gündəlik hasilat və nəql kvotasını ilin əvvəlindəki çərçivəyə qaytarmaqla, bazarı tarazlamaq niyyətindədir.

**Qiymətlərin 80-90 dollar olması münasib hesab edilir**

“OPEC+” enerji ittifaqı adətən qlobal enerji bazarlarında baş verən fraqmentasiyalara uyğun qərarlar qəbul edir, bazarda nizamlayıcı rol oynamaq üçün yanacağın tədarük kvotalarını müəyyənləşdirir. Alyans üzvlərinin siyasətində neftin baha qiymətə satılması arzuolunan hesab edilmir, tədarükçülər orta qiymət zənbilinin 80-90 dollar arasında olmasını münasib hesab edərək bazara tələb olunan kvotaya uyğun neft çıxarır. Neftin qiymətləri yüksələndə adətən hasilat və nəql artırılır.




“OPEC+” ölkələri neftin qiymətləri ucuzlaşanda, hazırkı ssenariyə əsasən, yanacağın qiymətinin orta satış 70 dollardan aşağı düşməsi tendensiyası artanda hasilatı azaltmaq qərarı verir. Son 2 ildə dünya bazarında neftin orta satış qiyməti 80-90 dollar civarında dövr etdiyindən “OPEC+” ölkələri neftin hasilatını artırmaq yox, nisbi azaltmaq kursu üzrə hərəkət edib. Yaxın Şərqdə və Fars körfəzində baş verən son hadisələr və Hörmüz boğazının bağlanmasından sonra aprelin əvvəlində hasilatı 200 min barelə yaxın artıran “OPEC+” ölkələri bununla da qiymətlərin sabitliyinin təmin edilməsi üçün mühüm addımlardan birini atdı.

**Azərbaycan alyans üzvlərinin razılaşmasını dəstəkləyir**

“OPEC +” ölkələrinin anlaşmasına əsasən, Azərbaycanın gündəlik nəql kvotası əvvəlki həcmdə - təxminən 550 min barrel həcmində qalacaq. Xatırladaq ki, “OPEC+” ailəsinin üzvü olan Azərbaycanın gündəlik neft hasilatı da alyans üzvlərinin birgə qərarına əsasən müəyyənləşir. Həmin qərarlara uyğun olaraq, Azərbaycanın gündəlik neft hasilatının 2026-cı il üzrə müəyyən edilmiş kvotası təxminən 540-550 min barel təşkil edir. Bu, ölkəmiz üçün orta qiymət şkalasının tənzimlənməsində qənaətbəxş hesab edilə bilər. Ümumiyyətlə, respublikamız istər “OPEC”in, istərsə də “OPEC+”in tədbirlərində qəbul edilən qərarlara həmişə hörmətlə yanaşıb və rəsmi Bakı kvotanın azaldılması barədə dəfələrlə irəli sürülmüş təklifləri tam yerinə yetirib.

Azərbaycan alyansda etibarlı tərəfdaş və nümunəvi tədarükçü kimi təkcə neft ehtiyatlarının nəqlini deyil, həm də müasir qlobal bazarın əsas tələbatlarından birinə çevrilən alternativ yanacaq mənbələrinin səfərbər olunması və koalisiyalarla birlikdə nəqlində təşəbbüskarlıq edir. Xüsusilə son dövrlərdə “yaşıl enerji” üzrə layihələrdə “OPEC”in ən iri təchizatçıları olan BƏƏ və Səudiyyə Ərəbistanı ilə “yaşıl enerji” konsepsiyasında yaxın tərəfdaşlıq və birgə günəş və külək stansiyalarının qurulması bu fəallığın nümunəsi kimi qiymətləndirilir.



Bunu “OPEC”in baş katibi Haysam əl-Qays də etiraf edir və bildirir ki, kartel ölkələri ilə Azərbaycan arasında əlaqələr hər zaman yüksək olub, hazırkı əməkdaşlıq isə “qızıl dövr”ünü yaşayır. “OPEC”in rəhbərliyi qlobal səviyyədə yanacaq emissiyasının azaldılması və yaşıl hidrogenə keçidə bağlı beynəlxalq təşəbbüslərin dəstəkləyicisi olan Azərbaycanın səylərini də yüksək dəyərləndirib.

**Avqustda bazardakı vəziyyətə uyğun yeni qərar veriləcək**

Qlobal bazarın təxminən 40-42 faizini neftlə təmin edən “OPEC+” ölkələri avqustda növbəti toplantı zamanı, neft bazarı ilə bağlı vəziyyətə uyğun yeni qərar verəcək. Alyans ölkələrinin istehsal və nəql kvotasının artırılıb-artırılmayacağı barədə qərar qiymətlərin və istehlakın səviyyəsinə uyğun qiymətləndirilərək veriləcək. Əgər neftin qiyməti sabit qalarsa, hasilatın azaldılmasına qərar verilməyəcək. Qiymətlərdə kəskin enişlərin başvermə tendensiyası müşahidə olunarsa, risklər nəzərə alınaraq hasilatın azaldılmasına qərar verilə bilər.

Yeri gəlmişkən, ABŞ-ın Enerji İnformasiya Administrasiyası bu ilin ikinci yarısında neft qiymətlərinə dair ehtimallarını açıqlayıb. Məlumata görə, “Brent” markalı xam neftin bir barelinin orta qiyməti 78,84 dollar olacaq, “Light” markalı xam neftin orta qiymətinin isə cari ildə 73,61 dollar olacağı gözlənilir.

*E.CƏFƏRLİ*

# Yeni mərhələ - torpaqların konsolidasiyası

Ölkəmizdə aqrar sektorda yeni yanaşmaların tətbiqi yolu ilə məhsuldarlığın artırılması və daxili tələbatın yerli istehsal hesabına ödənilməsi prioritet hədəflərdən biri kimi müəyyənləşdirilib. Prezident İlham Əliyevin kənd təsərrüfatı məsələlərinə həsr olunan müşavirədə səsləndirdiyi fikirlər və qarşıya qoyduğu vəzifələr təsdiqləyir ki, Azərbaycan aqrar sektorun inkişafında yeni mərhələyə keçid edir. “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı” ölkənin ərzaq təhlükəsizliyi, regional inkişaf, ixrac potensialının artırılması və kəndlərin sosial-iqtisadi dirçəlişi baxımından strateji əhəmiyyət daşıyan mühüm sənəd kimi qiymətləndirilir. Dövlət proqramında yaxın perspektivdə aqrar sektorda çox mühüm islahatların aparılması nəzərdə tutulur ki, bunlardan biri də torpaqların konsolidasiyasıdır.

## Ölkədə aqrar sektorun inkişafı üçün yaradılan möhkəm baza

Respublikada əhalinin təxminən yarısının regionlarda yaşaması nəzərə alınmaqla Azərbaycanda kənd təsərrüfatı yalnız iqtisadi sahə kimi qəbul olunmur. Aqrar sektor bizim üçün ərzaq təminatı, sosial rifah, məşğulluq, regional inkişaf kimi çox mühüm məsələlərin bir arada cəmləşməsi deməkdir. Bu kimi amillər nəzərə alınmaqla respublikamızda son 22 ildə kənd təsərrüfatının inkişafı məqsədilə ardıcıl siyasət həyata keçirilib və möhkəm baza formalaşdırılıb. Cari il mayın 25-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə dövlətimizin başçısı regional inkişaf proqramlarının önəminə xüsusi diqqət çəkib. 2004-cü ilin əvvəlindən etibarən qəbul edilən dövlət proqramları əslində regional inkişafın yol xəritəsi idi. Hər bölgənin xüsusiyyətləri, təsərrüfat ənənələri, yerlərdən gələn sosial sifarişlər nəzərə alınmaqla hazırlanan bu sənədlər çərçivəsində reallaşdırılan çoxsaylı layihələr regional inkişafa təkan verib, bölgələrimizin siması əhəmiyyətli dərəcədə dəyişib.

Müasir infrastruktur quruculuğu bəhs olunan dövlət proqramlarının əsas leytmotivini təşkil edirdi ki, bunun da məntiqi aydındır. Zəruri infrastruktur - yaxşı yollar, su təchizatı sistemi, enerji təminatı həm sosial, həm də iqtisadi önəm daşıyır. Bunlar yaradılmadan nə insanların rifahını təmin etmək, nə də yerlərdəki iqtisadi potensalı hərəkətə gətirmək, o cümlədən də aqrar sektorun imkanlarından səmərəli şəkildə istifadə etmək mümkün deyil.

Bu gün respublikamızın mənzərəsi tamam fərqlidir. Biz qürur duyuruq ki, hazırda Azərbaycan infrastruktur təminatı baxımından dünyanın ən qabaqcıl ölkələri sırasında yer alır. Son 22 ildə bütün ölkə boyunca həyata keçirilən müxtəlif təyinatlı infrastruktur layihələri bilavasitə dövlət investisiya qoyuluşu ilə maliyyələşdirilib və əhalinin, biznes strukturlarının, fermerlərin istifadəsinə verilib. Bundan başqa, ötən dövrdə dövlət başçısının qətiyyətli siyasi iradəsi əsasında fermerlərə güclü dəstək mexanizmi formalaşdırılıb, təşviq tədbirlərinin miqyası genişləndirilib, sağlam rəqabət mühiti yaradılıb, yerli istehsal davamlı olaraq qorunub. Hazırkı strateji mərhələdə də bu möhkəm baza üzərində Prezident İlham Əliyevin cari il mayın 25-də imzaladığı sərəncamla təsdiqlənən “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı”nda nəzərdə tutulan islahatları reallaşdırmaq üçün geniş imkanlar var. Dövlət dəstəyi tədbirlərinin artırılması, iri təsərrüfatların yaradılması yolu ilə məhsuldarlığın və gəlirliliyin artırılması, xərclərin optimallaşdırılması yeni Dövlət Proqramında qarşıya qoyulan əsas məqsədlər sırasında yer alır.



## Respublika üzrə torpaqların konsolidasiyasına start verilir

Torpaqların konsolidasiyası islahatı Azərbaycan üçün yeni bir başlanğıcdır. Torpaqların konsolidasiyası müvafiq icra hakimiyyəti orqanının yaratdığı komissiyanın qərarı əsasında hazırlanan layihə ilə həyata keçirilir. Layihədə torpaq sahələrinin mövcud vəziyyətinin təhlili, yeni sərhəd-yerləşmə sxeminin mülkiyyətçilərlə razılaşdırılması, infrastruktur dəyişiklikləri əks etdirilir. Komissiyanın qərarı ilə təsdiq olunan bölgü sənədi daşınmaz əmlak hüquqlarının dövlət qeydiyyatı üçün əsas kimi çıxış edir. Bu mexanizm konsolidasiya prosesinin şəffaf, mübahisəsiz və hüquqi cəhətdən etibarlı şəkildə başa çatdırılmasını təmin edir. Torpaq parçalanmasının yeni formada davam etməsinin qarşısını almaq məqsədilə kənd təsərrüfatı təyinatlı torpaqlarının alqı-satqı və digər özgəninkiləşdirmə yolu ilə bölünməsinə yalnız nəticədə yaranan hər bir sahənin ölçüsü 5 hektardan az olmadığı hallarda yol verilir. Bu məhdudiyyət kiçik, qeyri-səmərəli sahələrin yenidən yaranmasının qarşısını alır.

Qəbələ və Salyanın kəndlərində torpaq konsolidasiyası pilot layihəsi həyata keçiriləcək. Bu barədə kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib. Onun sözlərinə görə, layihə 32 kəndi və ümumilikdə 20 min hektar ərazini əhatə edəcək. “Konsolidasiya torpaq mülkiyyətinin itirilməsi demək deyil. Əksinə, fermerlər öz mülkiyyət hüquqlarını qoruyub saxlayacaqlar. Məqsəd bir fermerə məxsus müxtəlif ərazilərdə yerləşən torpaq sahələrinin birləşdirilərək vahid təsərrüfat şəklində təşkil edilməsidir. Konsolidasiyanın əsasını həmin ərazilərdə daxili və qapalı suvarma şəbəkələrinin qurulması təşkil edir. Bununla yanaşı, hər bir torpaq sahəsinin yol infrastrukturu ilə təmin olunması nəzərdə tutulur”, - deyə nazir vurğulayıb.

M.Məmmədov əlavə edib ki, hər hansı kənddə konsolidasiya aparıldıqda fermerlərin parçalanmış torpaq sahələri birləşdiriləcək, sahələrə qədər təzyiqli su çatdırılacaq, yol infrastrukturu yaradılacaq və ehtiyac olan yerlərdə drenaj sistemləri qurulacaq. Torpaq konsolidasiyası islahatının önəmində diqqət çəkən nazir bildirib: “Konsolidasiya fermerlərin xərclərinin azalmasına və təsərrüfat fəaliyyətinin daha səmərəli təşkilinə şərait yaradacaq. Fermerlər vahid ərazidə daha böyük həcmdə əkin işləri apara, müasir aqrotexniki tədbirləri daha effektiv tətbiq edə biləcəklər. Eyni zamanda, yol, suvarma, koordinat və torpaq sahələrinin parçalanması ilə bağlı mövcud problemlərin aradan qaldırılması fermerlərin fəaliyyətini asanlaşdıracaq. Nəticədə torpaq sahələrinin bazar dəyərinin də artacağı gözlənilir. Bundan əlavə, konsolidasiya həyata keçirilən ərazilər üçün xüsusi subsidiya və təşviq mexanizmlərinin tətbiqi də nəzərdən keçirilir. Məqsəd fermerlərin bu prosesdə daha könüllü və rahat şəkildə iştirakını təmin etməkdir”.

## Zəruri hüquqi bazanın yaradılması

Torpaqların konsolidasiyası islahatı özlüyündə nə qədər cəlbedici olsa da, bunun üçün zəruri hüquqi bazanın təmin edilməsi və tənzimləmə mexanizmlərinin işə salınması mütləqdir. Artıq Torpaq Məcəlləsinə, Mülki Məcəlləyə, “Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında”, “Torpaq bazarı haqqında” və “Daşınmaz əmlakın dövlət reyestri haqqında” qanunlara təklif edilən dəyişikliklər Milli Məclisdə müzakirəyə çıxarılıb.

Təqdim olunan qanun layihəsinə əsasən, Torpaq Məcəlləsinə yeni 13-2-ci maddə əlavə edilir. Həmin maddə torpaqların konsolidasiyası kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin mülkiyyətçilərin razılığı və ekvivalent bazar dəyəri əsasında birləşdirilməsi, bölünməsi, sərhədlərinin yenidən müəyyən edilməsi, dəyişdirilməsi nəticəsində mülkiyyət hüquqlarının yenidən rəsmiləşdirilməsi, eləcə də ehtiyacdan asılı olaraq suvarma, meliorasiya, yol, enerji və digər mühəndis-kommunikasiya infrastrukturu üzrə dəyişikliklərin həyata keçirilməsi prosesi kimi müəyyən edir.



Müzakirəyə çıxarılan layihədə torpaqların könüllü konsolidasiyasını stimullaşdırmaq məqsədilə Mülki Məcəlləyə yeni 648-1-ci maddə əlavə edilir: kənd təsərrüfatı təyinatlı torpaq sahəsi satışa çıxarıldıqda həmin sahə ilə bilavasitə ümumi sərhədə malik torpaq sahəsi mülkiyyətçiləri həmin sahəni eyni şərtlərlə satın almaqda üstünlük hüququna malik olurlar. Bu norma qonşu torpaq sahiblərinin öz sahələrini genişləndirməsinə, beləliklə konsolidasiyaya təbii bazar mexanizmi vasitəsilə nail olunmasına şərait yaradır.

Miras yolu ilə torpaq parçalanmasının qarşısını almaq üçün isə məcəllənin müvafiq maddəsinə dəyişiklik edilir: vərəsəlik zamanı kənd təsərrüfatı torpağının bölünməsinə yalnız hər bir hissənin 5 hektardan az olmaması şərti ilə yol verilir. Bölgü mümkün olmadıqda torpaq təsərrüfatla birlikdə satıla, vərəsələr isə paylarını pul şəklində ala bilərlər. Bundan əlavə, konsolidasiyaya dair bölgü sənədi daşınmaz əmlak hüquqlarının dövlət qeydiyyatı üçün əsas olan sənədlər siyahısına daxil edilir.

“Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında” qanunda dəyişikliklə isə konsolidasiya prosesində torpaq sahələrinin yeni sərhədlərinin yerdə müəyyən edilməsi, kadastr məlumatlarının yenilənməsi və infrastruktur planlaşdırmasını tənzimləmək üçün yerquruluşu xidmətinin funksiyaları genişləndirilir.

“Torpaq bazarı haqqında” qanunda dəyişikliklə isə konsolidasiya məqsədilə həyata keçirilən torpaq əqdlərinin xüsusi hüquqi rejimə ehtiyacı olduğundan həmin əqdlər torpaq bazarının tənzimləmə çərçivəsinə daxil edilir. Bu dəyişiklik konsolidasiya prosesinin torpaq dövriyyəsi qaydaları ilə ziddiyyət yaratmadan həyata keçirilməsini, əqdlərin hüquqi müəyyənliyini və şəffaflığını təmin edir.

“Daşınmaz əmlakın dövlət reyestri haqqında” qanunda dəyişikliklə isə konsolidasiyaya dair bölgü sənədi daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün əsas olan sənədlər siyahısına əlavə edilir. Bu, konsolidasiya nəticəsində yaranan yeni torpaq sahələri üzərindəki hüquqların operativ və maneəsiz qeydiyyata alınmasını təmin edir.

Qanun layihəsi torpaqların konsolidasiyasının həyata keçirilməsi üçün vahid hüquqi əsas formalaşdırır. Layihənin hazırlanmasında geniş miqyasda torpaq konsolidasiyası təcrübəsinə malik ölkələrin, o cümlədən Türkiyənin, habelə digər ölkələrin hüquqi aktları və prinsipləri təhlil edilərək yerli şəraitə uyğunlaşdırılıb. Sənədin qəbulu kənd təsərrüfatında məhsuldarlığın artırılması, torpaq resurslarından səmərəli istifadənin təmin edilməsi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi və kənd yerlərinin inkişafı üçün mühüm əhəmiyyət daşıyır.

*Mübariz ABDULLAYEV*




# NATO-nun 36-cı Zirvə toplantısı keçirildi

# Ankaradan verilən mesajlar...

Türkiyənin paytaxtı Ankara şəhərində keçirilən NATO-nun 36-cı Zirvə toplantısı iyunun 8-də davam edib. Zirvə toplantısının ikinci günündə keçirilən Şimali Atlantika Şurasının İclasından öncə NATO Baş katibi Mark Rutte, eləcə də dövlət və hökumət başçıları əsas sessiyadan əvvəl mətbuata açıqlamalar veriblər.




**Rutte: Daha güclü bir NATO, daha güclü bir Avropa meydana çıxır...**

Mark Rutte bildirib ki, ötənilki Haaqa Zirvəsi tamamilə planlaşdırma və məqsədlərin müəyyənləşdirilməsinə həsr edilmişdisə, Ankara Zirvəsi bu məqsədlərə nail olmaqla bağlıdır. Alyans daxilində artan xərcləmə qabiliyyətinə və müdafiə sənayesi investisiyalarına işarə edən Rutte Zirvə görüşünün ilk günündə böyük uğurlar əldə edildiyini, çoxsaylı yeni müqavilələr və öhdəliklər imzalandığını qeyd edib. O, ABŞ baxımından müttəfiqlər arasında müdafiə xərclərini daha balanslı tənzimləmə məqsədinə nail olunduğunu deyib: "Bu il müdafiə xərclərini dövlətlər üzrə artıq ÜDM-in 4 faiz həddinə çatdırdıq, 5 faiz hədəfinə doğru yolda bu, fövqəladə bir inkişafdır. Əlbəttə ki, bu, yalnız Prezident Donald Trampa bağlı deyil. Rusiyadan gələn təhdid də əhəmiyyətli bir amildir. Amma dürüst desəm, Prezident Trampın Avropa müttəfiqlərimizi və Kanadanı buna təşviq etməsi həqiqətən yaxşı oldu və nəticələr görünür. Nəticədə, daha güclü bir NATO və daha güclü NATO daxilində daha güclü bir Avropa meydana çıxır".

Yaxın Şərqdə baş verənlərlə bağlı suala cavab olaraq Rutte deyib: "Düşünürəm ki, bu, tamamilə zəruri idi. Çünki atəşkəs qüvvədə olsa da, İranın bu atəşkəsi mahiyyət etibarilə pozduğunu görürük. Gəmilərə edilən hücumlarla nə baş verdiyini gördük. Buna görə də ABŞ-ın güclü və qətiyyətli şəkildə cavab verməsi son dərəcə vacibdir."

Trampın "ABŞ qoşunlarının Avropadan çıxarılması və Qrenlandiya üzərində nəzarəti bərpa etmək ehtimalı" ilə bağlı açıqlamaları ilə bağlı Rutte belə cavab verib: "O, ABŞ-ın NATO-ya öhdəliyinə tamamilə sadiqdir. Buna şübhəm yoxdur. Lakin keçmişdə olduğu kimi, müəyyən dərəcədə gözləntilər var idi və hələ də var. Buna baxmayaraq, ABŞ-ın NATO-ya öhdəliyi mütləqdir. Çünki NATO ABŞ-ın öz maraqları üçün də vacibdir. Məsələn, NATO Rusiyanın nüvə sualtı qayıqlarının ABŞ sahillərinə çatmasının qarşısını almaqda böyük əhəmiyyət kəsb edir. Amerikanın təhlükəsizliyini qorumaq üçün Atlantik okeanını, Avropanı və Arktika bölgəsini təhlükəsiz saxlaması lazımdır".

**"Tarixin ən güclü ittifaqında birləşmişik"...**

Böyük Britaniyanın Baş naziri Kir Starmer Ukraynada davam edən münaqişə və Hörmüz boğazındakı son hadisələr fonunda keçirilən NATO Zirvəsində müttəfiqlərin birlik və qətiyyətlə hərəkət etməli olduğunu söyləyib. Mətbuata açıqlamasında Starmer artan qlobal risklər dövründə alyansın mövqeyinin olduqca vacib olduğunu qeyd edib: "Belə bir dövrdə liderlər olaraq NATO-nun birliyini və gücünü nümayiş etdirməyimiz son dərəcə vacibdir".

Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis ölkəsinin NATO-ya dəstəyinin sarsılmaz olduğunu bildirib. "Hazırda silahlı qüvvələrimiz üçün 25 milyard avroluq modernləşdirmə proqramı həyata keçiririk," - deyən Mitsotakis vurğulayıb ki, Yunanıstan həmişə NATO qarşısındakı öhdəliklərini yerinə yetirib.

Macarıstanın Baş naziri Peter Magyar da sammitdən əvvəl mətbuata açıqlamasında macar xalqının "NATO-nun gücünə və birliyinə" inandığını bildirib. "NATO-nun tam qalması bütün ortaq maraqlarımıza uyğundur və biz Macarıstanı etibarlı müttəfiq kimi yenidən mövqeləndirməyə qərarlıyıq", - deyən Magyar Macarıstan hökumətinin müdafiə xərclərini artırmaq qərarına gəldiyini və 2035-ci ilə qədər 5 faizlik hədəfinə çatacağını qeyd edib.

Bolqarıstanın Baş naziri Rumen Radev vurğulayıb ki, Ankarada keçirilən NATO Zirvə görüşü alyansın dərin transformasiyaya məruz qaldığı həlledici bir dövrdə baş tutur. Radev bildirib ki, sammit Avropadakı müttəfiq ölkələrin NATO-nun kollektiv müdafiə imkanlarına daha çox töhfə vermək ehtiyacını və öhdəliyini ortaya qoyur. O əlavə edib ki, qonşu bölgələrdə, xüsusən də Ukrayna və Yaxın Şərqdə münaqişələr Avropa dövlətlərinə vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsinin əvəzolunmaz bir məsuliyyət olduğunu və davamlı səy tələb etdiyini açıq şəkildə nümayiş etdirir. Radev vurğulayıb ki, NATO-nun müdafiə xərclərini ÜDM-in 5 faizinə çatdırmaq məqsədi Bolqarıstan üçün təkcə ənənəvi müdafiə imkanlarının inkişafını deyil, həm də infrastruktura, nəqliyyat və bağlantı qabiliyyətinə, rəqəmsal dayanıqlığa və kibertəhlükəsizliyə investisiyalar deməkdir.

Danimarka Baş naziri Mette Frederiksen qlobal təhlükəsizlik mühitinin getdikcə qeyri-sabitləşdiyini bildirərək, Avropanın yenidən silahlanmasına və NATO ittifaqının gücləndirilməsinə çağırış edib. Dünyanın hər gün daha da təhlükəsiz olmayan bir yerə çevrildiyini vurğulayan Frederiksen deyib ki, "Bizə daha güclü bir NATO lazımdır. Tarixin ən güclü ittifaqında birləşmişik və biz onu bu şəkildə qorumalıyıq. Bu gün burada əsas mesajım Avropanın yenidən silahlanmasının əhəmiyyətidir."

Frederiksen ABŞ-ın Avropada və transatlantik miqyasda güclü sənaye müdafiə bazası yaratmasına və Ukraynaya dəstək verməsinə çağırış edib. Frederiksen, NATO-nun əsasını təşkil edən kollektiv müdafiə prinsipinə (5-ci maddə) tam sadiqlik mesajı verərək bildirib: "Əgər birimizin başına bir şey gələrsə, hamı bir-birinin müdafiəsinə qalxmalıdır. 5-ci maddə bizim sığortamızdır".

İslandiyanın Baş naziri Kristrun Frostadottir bildirib ki, "Qrenlandiya Qrenlandiya xalqına məxsusdur. Onlar ABŞ-ın bir hissəsi olmaq istəmirlər. Onlar bu barədə çox açıq danışırlar". NATO-nun son 12 ayda daha da gücləndiyini qeyd edən Frostadottir deyib ki, dinamika dəyişib və müzakirələr bir qədər fərqli ola bilər; lakin daha çox üzvümüz var və müdafiəyə daha çox resurs ayrılır; buna görə də, bir çox cəhətdən bu, 12 ay əvvəlkindən daha güclü bir ittifaqdır.

**Hər il Ukraynaya 70 milyard avro dəstək...**

Kanada Baş naziri Karni də müdafiə xərclərini əhəmiyyətli dərəcədə artırdıqlarını bildirib. O qeyd edib ki, Zirvə görüşü müharibənin təbiətinin sürətlə dəyişdiyi və qarşılaşdığımız təhdidlərin, xüsusən də hibrid müharibə, hipersəs raketlər və muxtar müharibə texnologiyaları ilə getdikcə daha müxtəlifləşdiyi bir vaxtda keçirilir. Karni bildirib ki, ittifaq daxilində yükün bölüşdürülməsi ABŞ-dan Kanada və Avropaya keçir. Karni əlavə edib ki, Kanada ÜDM-nin 1,5 faizini müdafiəyə ayırır və bu rəqəm növbəti iki ildə 4 faizə çatacaq.

Çexiya Prezidenti Petr Pavel Türkiyənin Çexiya üçün vacib tərəfdaş olduğunu deyib. Pavel ticarət, investisiya, müdafiə, təhlükəsizlik və elm sahələrində ikitərəfli əlaqələri dərinləşdirməklə münasibətlərin daha da inkişaf etdirilə biləcəyini qeyd edib. O, həmçinin Aİ ilə Türkiyə arasında enerji, nəqliyyat və miqrasiya sahələrində əməkdaşlığın gücləndirilə biləcəyini vurğulayıb. "Həm Çexiyanın, həm də xüsusilə Türkiyənin müdafiə sənayesinin mühüm göstəricilərini nəzərə alsaq, şirkətlərimiz arasında hava hücumundan müdafiə və pilotsuz təyyarələrə qarşı texnologiyalar sahəsində artan əməkdaşlıqdan ruhlanıram", - deyən Pavel müdafiə tərəfdaşlığının bu əsasda inkişaf etdirilə biləcəyini əlavə edib: "Türkiyə coğrafi mövqeyi və hərbi imkanlarına görə NATO-nun kollektiv təhlükəsizliyi üçün əvəzolunmaz olan strateji əhəmiyyətli müttəfiqdir. Biz Türkiyənin alyansa verdiyi töhfələri yüksək qiymətləndiririk və bugünkü ortaq təhlükəsizlik problemləri qarşısında əməkdaşlığımızı gücləndirməyi səbirsizliklə gözləyirik".




Almaniya kansleri Fridrix Mertz Ankarada keçirilən NATO Zirvə toplantısında alyansın daha güclü və daha birləşdirici bir ruh yaradacağına əmin olduğunu bildirib. Mertz Aİ dövlətlərinin müdafiə səylərini artırmaqla NATO-nun transatlantik olaraq qala bilməsi üçün alyansı "daha avropalı" edəcəklərini vurğulayıb. O, Almaniya, Norveç və Kanada arasında sualtı qayıqlar sahəsində əməkdaşlığı nümunə göstərərək "Bu, bizi onilliklər boyu bütün Atlantik bölgəsində birləşdirəcək", deyib. Mertz vurğulayıb ki, Avropa olaraq 2026 və 2027-ci illər üçün hər il Ukraynaya 70 milyard avro dəstək vermək kimi birgə təşəbbüs həyata keçiriblər: "Bu müharibəyə son qoymaq indi yalnız Rusiyadan asılıdır".

**Tramp: Türkiyə çox ciddi və nəhəng bir hərbi dövlətdir...**

ABŞ Prezidenti Donald Tramp NATO-nun Ankara sammiti çərçivəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Yaxın Şərqdəki hərbi gərginlik və İranla bağlı olduqca sensasiyalı, dünya mediasının gündəmini sarsıdacaq bəyanatlarla çıxış edib. Ağ Ev rəhbəri Türkiyə liderinin müharibə planları və ABŞ-ın bu prosesdəki xüsusi rolu barədə gizli qalan məqamları açıqlayıb. Donald Tramp Ankarada jurnalistlərə verdiyi




açıqlamada Türkiyə dövlət başçısına olan rəğbətini gizlətməyib və regiondakı qüvvələr nisbətinə toxunub: "Prezident Ərdoğan mənim çox xoşuma gəlir, o, mənə olduqca səmimi və isti bir qəbul təşkil etdi. O, möhtəşəm və çox sağlam düşüncəli bir insandır. Hesab edirəm ki, Ərdoğanın özü də İrandan heç xoşlanmır. İranlılar isə tamamilə ağlını itirib, onlar tam bir dəlidir".

Tramp həmçinin İsrail Baş naziri Benyamin Netanyahu ilə keçirdiyi məxfi danışığın detallarını da açıqlayıb. ABŞ lideri bildirib ki, Netanyahu ötən gün Türkiyə və şəxsən Ərdoğan barəsində çox sərt, kəskin ifadələr işlədib: "Mən Bibiyə dedim: Bilirsən, mən Ərdoğanla danışmışam. O, bu müharibəyə daxil ola bilərdi, çünki o, İsraili də, səni də qətiyyən sevmir. Lakin o, sırf mənə görə, mənim xatirimə bu addımı atmadı, müharibəyə girmədi. Halbuki Türkiyə çox ciddi və nəhəng bir hərbi dövlətdir. Milyonlarla hərbi qulluqçusu var və olduqca güclüdür. Onların sərəncamında bizim ən müasir silahlarımız var, həmçinin hazırda F-35 qırıcılarını da almağa çalışırlar. Ərdoğan bu müharibəyə müdaxilə etmək istəyirdi və əgər mən olmasaydım, o, mütləq qarşı tərəfdə yer alaraq döyüşə qoşulardı".

**Avropadan çağırış...**

Belçika Baş naziri Bart De Vever bildirib ki, müdafiə sənayesinin istehsal gücü hələ istənilən sürətlə artmasa da, ölkəsi müdafiə xərclərini əvvəlki ilə nisbətən 60 faiz artırıb. De Vever Zirvə toplantısının üç əsas prioritetinin müdafiə xərclərini artırmaq, müdafiə sənayesini gücləndirmək və Ukraynaya dəstəyi davam etdirmək olduğunu deyib və ölkəsinin də bu hədəflərə doğru irəlilədiyini bildirib.

Hollandiya Baş naziri Rob Yetten Lüksemburq Baş naziri Lyuk Friden və Şimali Makedoniya Prezidenti Qordana Siljanovska-Davkova Avropanın müdafiə qabiliyyətinin gücləndirilməsinin və ittifaq daxilində birliyin qorunmasının vacibliyini vurğulayıblar.

**Rəcəb Tayyib Ərdoğan: Avropada ən böyük quru ordusuna sahib ölkə olaraq...**

36-cı NATO Dövlət və Hökumət Başçıları Zirvəsinin Şimali Atlantika Şurasının İclasında çıxış edən Prezident Rəcəb Tayyib Ərdoğan bildirib ki, Türkiyənin əsas uğuru müdafiə sənayesindəki irəliləyişdir. İstehsal və ixrac gücü baxımından dünyanın ilk 10 ölkəsi arasında yer almışıq: "Avropada ən böyük quru ordusuna sahib ölkə olaraq, imkanlarımızı lazım olduqda alyansın xidmətinə verməyə çalışırıq. Türkiyə olaraq, 2030-cu ilə qədər müdafiə xərclərimizin nisbətini 3,5 faizə çatdırmaq üçün tədbirlər görmüşük."

NATO 3.0 məqsədinə çatmaqla bağlı fikirlərini bölüşən Ərdoğan qeyd edib ki, "Müttəfiqlər arasında, xüsusən də müdafiə sənayesində müdafiə əməkdaşlığına qoyulan məhdudiyyətlər aradan qaldırılmalıdır. Ağıl və məntiqlə diktə edilən əməkdaşlıq modeli mümkün olsa da, üzv olmayan müttəfiqlərin xaric edilməsi Avropada süni bölünməyə səbəb olacaq". O əlavə edib ki, PUA və UCAV-lardan uğurla istifadə edən müttəfiq olaraq, Pilotsuz Sistemlər Əks Tədbirləri üzrə Mükəmməllik Mərkəzimizin NATO tərəfindən akkreditə olunmasına ümid edirik. Məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı Ərdoğan "Bu mesajın Müdafiə Sənayesi Forumunda hökumət rəsmiləri tərəfindən vurğulanmasını alqışlayıram", - deyə qeyd edib. Yaxın Şərqdə baş verənlərə toxunan Türkiyə Prezidenti deyib ki, "İran böhranının həllini sabotaj etmək cəhdlərinə baxmayaraq, dostum cənab Trampın dəstəklədiyi qətiyyətli mövqeyi yüksək qiymətləndirirəm. Hörmüz boğazından minaların təmizlənməsinə töhfə verməyə hazırıq". Ərdoğan Qəzza bölgəsində davamlı sülhün açarının iki dövlətli həll olduğunu bir daha vurğulayıb və əlavə edib: "Vurğulamaq istəyirəm ki, hamımızın, xüsusən də Qəzza və Livanda əmin-amanlığı təmin etmək vəzifəsi var".

Çıxışında Rusiya-Ukrayna münaqişəsinə də toxunan Türkiyə lideri "Ukraynanı dəstəkləyərkən, biz Rusiyanı sülhə doğru istiqamətləndirmək üçün kommunikasiya kanallarımızdan da istifadə edirik. Mən cənab Trampın Ukrayna münaqişəsində sülhə dair vizyonunu bölüşürəm və Ukraynanın ehtiyacları prioritetləşdirmək təşəbbüsünü dəstəklədiyimi bildirirəm", -deyə vurğulayıb. R.T.Ərdoğan bildirib ki, "Hər kəsə xatırladıram ki, terrorizmin bütün forma və təzahürlərinə qarşı mübarizədə tam həmrəy olmalıyıq".

**Üç müttəfiq Qara dənizdə sualtı infrastrukturu qoruyacaq**

Rumıniya, Bolqarıstan və Türkiyə çərşənbə günü üçtərəfli Qara dənizdə mina əleyhinə mübarizə Qrupunun fəaliyyətini tənzimləyən memoranduma düzəlişi imzalayıblar. Sənədə qrupun missiyalarında vacib sualtı infrastrukturun qorunması əlavə edilib. Memorandumuna düzəliş üç ölkənin müdafiə nazirləri tərəfindən Ankarada keçirilən NATO sammiti çərçivəsində imzalanıb.

İmzalanma üç müttəfiqin Qara dənizdə təhlükəsizliyin gücləndirilməsi və müttəfiq dəniz əməkdaşlığının artırılması ilə bağlı ortaq öhdəliyini əks etdirir. "Vacib sualtı infrastrukturun qorunması kompleks, inteqrasiya olunmuş və uzunmüddətli yanaşma tələb edir və tapşırıq qrupunu Qara dəniz hövzəsində təhlükəsizliyə fəal şəkildə töhfə verən regional qarşılıqlı fəaliyyət nümunəsi kimi təsvir edir", -deyə məlumatda vurğulanıb.

Qeyd edək ki, Qara dənizdə mina əleyhinə mübarizə Qrupunun yaradılması haqqında memorandum üç ölkə tərəfindən 11 yanvar 2024-cü ildə imzalanıb. Sənəd Qara dənizlə həmsərhəd olan NATO müttəfiqləri arasında ilk üçtərəfli təşəbbüs olub. Qrupun əsas missiyası müşahidə, minalara qarşı mübarizə əməliyyatları, dəniz təhlükələrini neytrallaşdırmaq və axtarış-xilasetmə fəaliyyətləri vasitəsilə naviqasiya azadlığını təmin etməkdir. 2024-cü il iyulun 1-də fəaliyyətə başladığı gündən bəri bu qrup 10 aktivləşdirmə həyata keçirib. Burada komandanlıq hər altı aydan bir üç ölkə arasında dəyişir. Hazırda komandanlıq Türkiyəyə məxsusdur və iyulun 9-da Bolqarıstana keçəcək.

**P.İSMAYILOV**

# Anlaşma Memorandumunun taleyi təhlükədə...

## ABŞ və İran arasında yenidən gərginliyin yaranması razılaşmaları sual altına qoyur



ABŞ-la İran arasında iyun ayında imzalanmış anlaşma memorandumunun taleyi sual altındadır. Buna səbəb Hörmüz boğazında üç kommersiya gəmisinə edilən hücum olub. Halbuki Dohada ABŞ və İran arasında keçirilən dolayı danışıqlardan sonra tərəflər nikbin bəyanat vermiş, birbaşa danışıqların isə Seyid Əli Xameneinin dəfn mərasimindən sonra baş tutacağı bəyan olunmuşdu. ABŞ Prezidenti Donald Tramp da vəziyyətdən məmnun göründürdü. O, bir neçə gün öncə CNBC telekanalına müsahibəsində bildirmişdi ki, ABŞ İranla danışıqlarda demək olar ki, bütün məqsədlərinə çatıb. Trampın sözlərinə görə, İran danışıqlar zamanı Amerikaya lazım olan hər şeyə razılıq verib. Ağ Ev rəhbəri İrana qarşı illərlə hərbi kampaniya aparmaq istəyinin olmadığını vurğulamışdı.

### Tankerlərə hücuma görə İran günahlandırılır

Lakin iyulun 7-də Hörmüz boğazında üç kommersiya gəmisinin vurulması Trampın bu mövqeyinə təsir edib. Yeri gəlmişkən, Qətər və Səudiyyə Ərəbistanı Hörmüz boğazında gəmilərə edilən son hücumlara görə İranın məsuliyyət daşıdığını bəyan edib. Qətər Xarici İşlər Nazirliyi Tehrandan regional təhlükəsizliyə və beynəlxalq gəmiçiliyə təhdid yaradan hərəkətləri dayandırmağı tələb edib. Qurumun nümayəndəsi bildirib ki, İran baş verən hücumlar və onların mümkün nəticələrinə görə məsuliyyət daşıyır.

Səudiyyə Ərəbistanının Xarici İşlər Nazirliyi də analoji mövqe nümayiş etdirib. Tankerlərin ikisinin Qətər və Səudiyyə Ərəbistanına məxsus olduğu bildirilir.

Körfəz Əməkdaşlıq Şurasının (KƏŞ) baş katibi Casim əl-Bədivi isə İranın Səudiyyə Ərəbistanına məxsus "Vedyan" tankerini Hörmüz boğazından keçərkən hədəfə almasını kəskin şəkildə pisləyib. Baş katib insidenti beynəlxalq hüququn və beynəlxalq dəniz nəqliyyatı marşrutlarının təhlükəsizliyinə dair qaydaların kobud şəkildə pozulması kimi qiymətləndirib. Onun sözlərinə görə, bu hadisə İranın bölgədə təhlükəsizliyi pozmağa, qlobal enerji təhlükəsizliyini sarsıtmağa və beynəlxalq ticarətə təhdid yaratmağa yönəlmiş siyasətinin davamı kimi qiymətləndirilir: "Bu cür addımlar beynəlxalq qanunlara, norma və razılaşmalara ziddir".

Baş katib, həmçinin Körfəz Əməkdaşlıq Şurasına üzv dövlətlərin Səudiyyə Ərəbistanı ilə tam həmrəy olduğunu vurğulayıb və krallığın milli maraqlarını qorumaq məqsədilə həyata keçirdiyi bütün tədbirləri dəstəklədiklərini bəyan edib.

Tankerlərin hücuma məruz qalmasına cavab olaraq ABŞ qüvvələri İrana qarşı bir sıra güclü zərbələr endirib. Bu barədə ABŞ Mərkəzi Komandanlığı açıqlama yayıb. Mərkəzi Komandanlıq qüvvələri iyulun 7-də zərbələr zamanı 80-dən çox hədəfi yüksək dəqiqlikli sursatlarla vurub. Məlumatda qeyd olunub ki, ABŞ qüvvələri İranın Hörmüz boğazında və ətrafında yerləşən hava hücumundan müdafiə sistemlərinə, idarəetmə şəbəkələrinə, sahil radar mərkəzlərinə, gəmi əleyhinə raket sistemlərinə və 60-dan çox kiçik qayığa zərbələr endirib. Məqsəd İranın beynəlxalq ticarət marşrutlarına hücum imkanlarını zəiflətmək olub. "İran bu yaxınlarda boğazdan keçən üç ticarət gəmisinə hücum edib. İran qüvvələrinin əsassız təcavüzü atəşkəsin açıq və təhlükəli şəkildə pozulmasıdır, həmçinin naviqasiya azadlığını təhdid edir. Mərkəzi Komandanlıq qüvvələri razılaşmaya əməl edilmədiyi təqdirdə, İranı məsuliyyətə cəlb etməyə hazırdır", - deyə açıqlamada bildirilib.

Bundan əlavə, ABŞ Maliyyə Nazirliyi avqustun 21-dək İranın neft sektoruna qarşı sanksiyaları yumşaldan lisenziyanı ləğv edib. Məlumata görə, yeni əqdlər iyulun 7-dən qadağan edilib, köhnə əqdləri isə iyulun 17-dək başa çatdırmaq mümkündür.

### Tramp: Zənnimcə, İranla atəşkəs razılaşması bitdi

Ankarada NATO-nun sammitində iştirak edən Prezident Donald Tramp isə İranla atəşkəs razılaşmasının bitdiyini bəyan edib. "Daha onlarla iş görmək istəmirəm. Zənnimcə, atəşkəs razılaşması bitdi",- deyən Tramp İran məsələsində NATO müttəfiqlərinin köməyinə ehtiyaclarının olmadığını deyib: "NATO-dan məmnun deyiləm. Onlar bizə kömək etmədilər, amma bizim onların köməyinə ehtiyacımız da yox idi. Sadəcə, kömək edib-etməyəcəklərini yoxlayırdım". İran böhranı barədə Almaniya, Fransa və Böyük Britaniya liderləri ilə müzakirə apardığını deyən Ağ Ev rəhbəri İspaniya ilə bağlı narazılığını ifadə edib: "Onlar pis tərəfdaşlardır. Biz onlarla hər şeyi, o cümlədən ticarəti dayandırdıq. İspaniya NATO tərkibində də heç bir işdə iştirak etmir. Biz onları daim qorumağa davam edə bilmərik. Mən hətta onlarla danışmıram da. Artıq İspaniya ilə işimiz yoxdur".



### Tehran: ABŞ-ın hücumları memorandumun müddəalarını etibarsızlaşdırır

İran Xarici İşlər Nazirliyi isə bəyan edib ki, ABŞ-ın hücumu İslamabad Anlaşma Memorandumunun müddəalarının pozulmasıdır: "ABŞ-ın İranın cənub sahilində yerləşən bəzi monitorinq məntəqələrinə hücumları memorandumun birinci maddəsinin pozulmasıdır və onun əsas müddəalarını etibarsız edir. Amerikanın İrana təkrar hücumları, ABŞ Maliyyə Nazirliyinin İran neftinin satışına sanksiyaları ləğv etmək qərarını geri götürməsi, İranın Hörmüz boğazı ilə bağlı razılaşmaların pozulması və İsrailin Livana davamlı hücumları anlaşma memorandumunun əsas müddəalarını etibarsız edib".

İran XİN-in bəyanatında artan gərginliyin nəticələrinə görə Vaşinqtonun məsuliyyət daşıyacağı vurğulanıb, həmçinin İranın ərazi bütövlüyünü və müstəqilliyini qorumaq üçün özünü müdafiə etməkdən çəkinməyəcəyi, hücumların mənşə nöqtələrini hədəf almağa davam edəcəyi qeyd edilib. Eyni zamanda, bəyanatda Körfəzin cənubundakı ölkələrə ABŞ tərəfindən İrana qarşı hücumlar üçün ərazilərinin istifadəsinə icazə verməmək üzrə beynəlxalq öhdəlikləri xatırladılıb.

İran İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) isə ABŞ-ın zərbələrinə cavab olaraq Bəhreyn və Küveytdə yerləşən Amerika hərbi obyektlərinə hücumlar həyata keçirdiyini bəyan edib. İran dövlət televiziyasının məlumata görə, cavab əməliyyatının ilk mərhələsində raket və pilotsuz uçuş aparatlarından istifadə edilməklə Bəhreyn və Küveytdə yerləşən ABŞ-a məxsus 85 əsas hərbi obyekt hədəfə alınıb. Əməliyyatda SEPAH-ın Hərbi Dəniz Qüvvələri və Aerokosmik Qüvvələri iştirak edib. Məlumatda, həmçinin ABŞ-a məxsus "MQ-9" tipli bir pilotsuz uçuş aparatının vurulduğu iddia olunub.

Gərginliyin artması fonunda CNN telekanalı ABŞ rəsmisinə istinadla Amerika hərbi qüvvələrinin İrana qarşı hücumlarının bir müddət davam edəcəyini bildirib. Mənbənin sözlərinə görə, ABŞ-ın həyata keçirdiyi zərbələr "mütənasib cavab" deyil, "cəza tədbiri" xarakteri daşıyır. O qeyd edib ki, əməliyyatlar müəyyən müddət davam edəcək.

**N.BAYRAMLI**

# Türkiyədə ilk dəfə...



## "Ay Ulduz" Birgə Qərargahı ilk dəfə NATO müdafiə nazirləri üçün qapılarını açdı

Türkiyənin milli müdafiə naziri Yaşar Gülər "Ay Ulduz" Birgə Qərargahında keçirilən qəbulda NATO müdafiə nazirlərini qəbul edib. Milli Müdafiə Nazirliyinin açıqlamasında bildirilib ki, Prezident Rəcəb Tayyib Ərdoğanın ev sahibliyi etdiyi 36-cı NATO Dövlət və Hökumət Başçıları Zirvə Toplantısı çərçivəsində hələ də tikintisi davam edən "Ay Ulduz" Birgə Qərargahının qapıları ilk dəfə NATO müdafiə nazirləri üçün açılıb. Qərargahın Ulduz hissəsində keçirilən qəbulda Gülərin qonaq nazirləri girişdə hərbi orkestrin müşayiəti ilə qarşıladığı və xatirə şəklinin çəkildiyi bildirilib. Nazir Yaşar Gülər qonaqları nazirliyin yeni tikilmiş kompleksində qəbul etməkdən böyük məmnuniyyət duyduğunu ifadə edib. Gülər kampusun Türkiyə bayrağının aypara və ulduzundan ilhamlanaraq dizayn edildiyini və bütün müdafiə və hərbi komandanlıq strukturunun bir kompleksdə birləşdiriləcəyini bildirib. Qərargahın yaxın gələcəkdə fəaliyyətə başlayacağını və dünyanın ən böyük qərargahlarından biri olacağını açıqlayan Gülər deyib: "Baş Qərargahımızı və qüvvələr komandanlığımızı bir çardaq altında birləşdirməklə həm birgə əməliyyat imkanlarımızı maksimum dərəcədə artırmağı, həm də bürokratik prosesləri sürətləndirməklə maksimum səmərəliliyə nail olmağı hədəfləyirik. Qərargahın təhlükəsizliyi ən yüksək səviyyəli hava və quru müdafiə tədbirləri və "Polad Günbəz" strategiyası çərçivəsində qabaqcıl texnologiyaya əsaslanan ən müasir təhlükəsizlik sistemləri ilə təmin ediləcək. Bu kampus böhran və müharibə ssenarilərində fasiləsiz rabitə və komandanlıq və nəzarət təmin etmək üçün "ağıllı və davamlı" bina texnologiyaları ilə təchiz olunub. Müasir qərargah olmaqdan əlavə, bu, həm də Türkiyənin müdafiə və təhlükəsizlik sahəsindəki güclü və qətiyyətli mövqeyinin konkret simvoludur. Əminəm ki, yeni qərargahımız həm ölkəmizin, həm də Alyansımızın müdafiəsi və təhlükəsizliyi üçün işlərin aparılacağı bir yer olacaq."



# Marin Lö Pen prezident seçkisi kampaniyasına elektron qolbaqsız başlayacaq




Fransada Paris Apellyasiya Məhkəməsi yanında baş prokuror Mari-Süzan Lö Ko bildirib ki, Milli Birlik Partiyasının lideri Marin Lö Pen 2027-ci il prezident seçkiləri üzrə kampaniyasına elektron nəzarət qolbağı olmadan başlayacaq.

AZƏRTAC xəbər verir ki, onun sözlərinə görə, Kassasiya Məhkəməsinə edilən şikayət apellyasiya instansiyasının hökmünün icrasını müvəqqəti dayandırır.

TF1 telekanalına müsahibəsində baş prokuror bildirib: "Kassasiya şikayəti verildiyi andan etibarən Apellyasiya Məhkəməsinin qərarını icra etməyəcəyəm. Buna görə də Marin Lö Pen seçki kampaniyasına elektron qolbaq olmadan başlayacaq".

Mari-Süzan Lö Ko əlavə edib ki, əgər Kassasiya Məhkəməsi 2027-ci il prezident seçkilərindən əvvəl qərar qəbul edərək hökmü qüvvədə saxlasa, Marin Lö Pen kampaniyanın son mərhələsində elektron qolbaq daşımalı ola bilər. Həmçinin o, prezident seçilsə və qərar bundan sonra çıxarılsa, dövlət başçısının toxunulmazlığı səbəbindən cəzanın icrası təxirə salınacaq.

Paris Apellyasiya Məhkəməsi Marin Lö Peni Milli Birlik Partiyasının Avropa Parlamentindəki köməkçiləri ilə bağlı işə üzrə təqsirli bilib. Məhkəmə onun seçilmək hüququndan məhrumedilmə müddətini azaldaraq, 2027-ci il prezident seçkilərində namizədliyini mümkün sayıb. Lö Pen üç il müddətinə azadlıqdan məhrum edilib, bunun bir ili elektron qolbaq altında çəkilməli, həmçinin 100 min avro cərimə ödənilməlidir.

Qərardan sonra Marin Lö Pen Kassasiya Məhkəməsinə müraciət etdiyini açıqlayıb və bunun apellyasiya hökmünün icrasını dayandırdığını bildirib. O, eyni zamanda, 2027-ci il prezident seçkilərində namizədliyini rəsmən təsdiqləyib.

Bunun ardınca Milli Birlik Partiyasının lideri seçki kampaniyasının rəsmi internet səhifəsini istifadəyə verib və kampaniyasının şüarını - "Fransa üçün dirçəliş" təqdim edərək, prezidentlik yarışına start verdiyini elan edib.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Böyük dramaturq, görkəmli maarifçi...

## Nəcəf bəy Vəzirovun vəfatından 100 il keçir



Bu gün Azərbaycan ədəbi və mədəni irsinin formalaşmasında silinməz iz qoymuş görkəmli dramaturq, maarifçi, publisist və ictimai xadim Nəcəf bəy Vəzirovun vəfatından 100 il ötür. Qeyd edilməlidir ki, Nəcəf bəy Vəzirovun xalqımızın maariflənməsi, milli teatrın inkişafı və cəmiyyətin tərəqqisi naminə apardığı çoxşaxəli fəaliyyət böyük əhəmiyyət kəsb edir.

1854-cü ildə qədim Qarabağ diyarının mədəniyyət beşiyi olan Şuşada dünyaya göz açan Nəcəf bəy Vəzirov hələ gənc yaşlarından elmə, ədəbiyyata və ictimai fikrə böyük maraq göstərib. O, dövrünün qabaqcıl ziyalıları ilə eyni idealları bölüşərək cəhalətə, savadsızlığa və köhnə düşüncə tərzinə qarşı qələmini güclü silah kimi istifadə edib. Yazdığı əsərlərdə isə cəmiyyətin ağrılı problemlərini sadəcə təsvir etməklə kifayətlənməyərək, onların həlli yollarını düşündürən dərin məzmun və güclü bədii ifadə ilə oxucuya təqdim edib.

**Ədəbi və teatr fəaliyyəti**

Nəcəf bəy Vəzirovun ədəbi yaradıcılığı 1870-ci illərdən başlayıb. O, Azərbaycan dramaturgiyasının ilk komediya və faciə nümunələrini yaradan sənətkarlardan biri olub. İlk pyeslərindən olan “Ev tərbiyəsinin bir şəkli” və “Gəmi lövbərsiz olmaz” əsərlərində ailə-məişət mövzularını, cəmiyyətin geriliyə qarşı durmaq bacarığını bədii şəkildə əks etdirib.

Ən məşhur əsərlərindən biri olan “Müsibəti-Fəxrəddin” dramı 1896-cı ildə qələmə alınıb və Azərbaycan ədəbiyyatında ilk faciə nümunəsi kimi tarixə düşüb. Bu əsərdə Vəzirov cəhalətə, köhnə düşüncəyə qarşı çıxaraq, maarifçilik və insan ləyaqəti ideyalarını təbliğ edib.

Digər mühüm əsərləri sırasında “Pəhləvanani-zəmanə”, “Ağa Kərim xan Ərdəbili”, “Vay şələküm-məəlləküm”, “Nə əkərsən, onu biçərsən”, “Keçmişdə qaçaqlar” kimi dramatik nümunələr yer alır. Onun pyeslərində xalq dili, milli-mənəvi dəyərlər və realizm əsas yer tutur.

**Publisistika və maarifçilik**

Nəcəf bəy yalnız dramaturq kimi deyil, həm də maarifçi publisist kimi tanınıb. O, “Əkinçi”, “Həyat”, “İrşad” və digər dövri mətbuat orqanlarında “Dərviş” imzası ilə çıxış edərək, cəmiyyətin tənqidinə, xalqın oyanmasına xidmət edən yazılar yazıb. Qələmi ilə cəhalətə qarşı mübarizə aparmış, xalqı elmə, təhsilə səsləmişdir.

Maarif uğrunda mübarizəsi onu ictimai fəaliyyətə də yönəldib. Bakı şəhər Dumasında çalışıb, yeni məktəblərin açılmasına, teatr dərnəklərinin təşkilinə rəhbərlik edib. Onun qələmə aldığı komediyalar və dram əsərləri uzun illər boyu teatr səhnələrinin repertuarında öz layiqli yerini qoruyub. Ailə münasibətləri, sosial ədalətsizlik, təhsilin əhəmiyyəti, qadının cəmiyyətdəki mövqeyi, rüşvətxorluq və mənəvi aşınma kimi mövzulara toxunaraq hər dövrün insanını düşündürən ümumbəşəri ideyalar irəli sürüb. Bununla da milli teatr sənətinin həm də cəmiyyətin aynası olduğunu parlaq şəkildə nümayiş etdirib.

Nəcəf bəy Vəzirovun fəaliyyəti yalnız ədəbiyyat və teatrla məhdudlaşmayıb. O, eyni zamanda peşəkar meşə mühəndisi kimi çalışaraq Azərbaycanın təbii sərvətlərinin qorunmasına töhfə verib. Maarifçilik ideyalarını isə həyatının bütün sahələrində yaşatmağa çalışıb.

Vəzirovun yaradıcılığı bu gün də aktuallığını qoruyur. Çünki əsərlərində qaldırdığı mənəvi məsuliyyət, vicdan, dürüstlük, vətəndaş mövqeyi və sosial ədalət kimi dəyərlər zamanın dəyişməsinə baxmayaraq, cəmiyyət üçün əhəmiyyətini itirməyib. Hər yeni nəsil bu əsərlərdə öz dövrünün problemlərinə bənzər məqamları görərək klassik irsin əsl gücünün məhz zamana qalib gəlməkdən ibarət olduğunu bir daha anlayır.

Nəcəf bəy Vəzirov 1926-cı il iyun ayının 9-da Şamaxının Çuxuryurd kəndində ürək xəstəliyindən vəfat edib. Cənazəsi Bakıya gətirilərək indiki Fəxri xiyabanda dəfn olunub. Nəcəf bəy fiziki olaraq bu dünyadan ayrılsa da, yaratdığı zəngin ədəbi irs, Azərbaycan teatrına qazandırdığı yeni nəfəs, milli maarifçilik tarixində oynadığı rol və xalqın mənəvi inkişafına xidmət edən ideyaları ilə əsrləri aşan bir şəxsiyyətə çevrilib. Onun adı Azərbaycan mədəniyyətinin və ədəbiyyatının ən parlaq simaları sırasında əbədi olaraq həkk olunub.

Bu gün, Nəcəf bəy Vəzirovun vəfatından 100 il sonra onun ömür yolu bizə bir daha xatırladır ki, millətin gələcəyini dəyişən insanlar təkcə böyük əsərlər yazan sənətkarlar deyil, həm də cəmiyyətə düşünməyi, öyrənməyi və yeniliklərə açıq olmağı öyrədən maarifçilərdir və belə şəxsiyyətlərin irsi nə qədər dərindən öyrənilərsə, milli-mənəvi dəyərlərimiz də bir o qədər möhkəm təməl üzərində gələcək nəsillərə ötürülər.

*Yeganə BAYRAMOVA*

# Seyid Əzim Şirvani irsi bu gün də yaşayır...

## Şairin anadan olmasından 191 il ötür

Azərbaycan ədəbiyyatının elə simaları var ki, onların qələmə aldığı misralar yalnız yaşadıqları dövrün deyil, əsrlər sonra da cəmiyyətin mənəvi aynasına çevrilərək insanları düşünməyə, özünə kənardan baxmağa və doğru ilə yanlışı ayırd etməyə sövq edir. Belə şəxsiyyətlərdən biri Seyid Əzim Şirvanidir. Məhəbbəti tərənnüm edən Füzuliyanə qəzəlləri ilə istedadlı lirik şair kimi ədəbiyyatımızda dərin iz buraxmış Şirvaninin anadan olmasından 191 il ötür. Onun realist şeir yaradıcılığında “Əkinçi” qəzetinin mühüm rolu olub. Yazdığı şeirlərinin böyük əksəriyyətində xalqı qəflət və cəhalət yuxusundan oyatmağa çağırırdı.

**Aşiqanə qəzəlləri daha çoxdur...**

Şairin qəzəlləri onun ədəbi yaradıcılığında xüsusi yer tutur. Əsərləri arasında müxtəlif Şərq mənbələrindən etdiyi tərcümələr, Sədi, Hafiz və Məhəmməd Füzuli şeirlərinə yazdığı nəzirələr də mövcuddur. Lakin bunlar şairin zəngin bədii irsinin yalnız bir hissəsidir. Seyid Əzim Şirvani yaradıcılığının çox hissəsi lirik janrda yazılmış original əsərlərdən ibarətdir ki, bunların da çoxu qəzəllərdir. Şairin qəzəllərində həyat sevgisi, nikbin əhval-ruhiyyə xüsusi yer tutur. Onun aşiqanə qəzəlləri daha çoxdur. Müəllifin şeirə hərarət və can verən dərin lirikasını məhz bu qəzəllərdə görmək olur.

Seyid Əzim Şirvani yaradıcılığının ikinci mərhələsi onun maarifçi və tənqidi-satirik şeirlərilə başlayır ki, artıq bu zamandan etibarən onun yaradıcılığında realizm üstünlük təşkil edir.

Şairin fikrincə, var-dövlət bir gün əldən çıxa bilər, lakin sənət heç vaxt itməz. İnsan əlindəki sərmayənin, yəni sənətin köməyi ilə yenə də var-dövlət sahibi olar.

*Puç olub getsə dövlətin zayə,*
*Genə sənətdir əldə sərmayə.*
*Elmdir əhli-sənətin hünəri,*
*Elmsiz sənətin nədir səməri?*

**18 illik əziyyətin sonu...**

19-cu əsrin sonlarına doğru Seyid Əzim Şamaxıda yeni üsulla “Məclis” adlı bir məktəb açır. Seyid Əzimin bu məktəbində köhnə mollaxanalardan fərqli olaraq, şagirdlərə Azərbaycan, rus, fars dilləri öyrədilir və müasir elmlərdən məlumat verilirdi. Seyid Əzim bütün maddi və mənəvi çətinliklərə baxmayaraq, 18 ildən artıq öz məktəbində müəllimlik edib. Nəhayət, bir tərəfdən mövhumatçıların və ruhanilərin müxtəlif bəhanələrlə ona qarşı hücuma keçmələri, digər tərəfdən də o zaman Şamaxıda dövlət tərəfindən açılan şəhər məktəbinin təsiri nəticəsində həmin məktəb fəaliyyətini dayandırmağa məcbur olur.

**Onu sevməyənlərin sayı hər gün artırdı**

1879-cu ildə Seyid Əzimin “ipə-sapa yatmazlığından” cana doymuş hökumət nümayəndələri ilə ruhanilərin işbirliyi sayəsində müəllimlikdən kənarlaşdırılır. Lakin bəzi maarifpərvər insanların səyləri sayəsində Seyid Əzimi müəllimliyə qaytarmaq mümkün olur. Seyid Əzim maarifçi və tənqidi-satirik şeirlərilə mövhumatı, nadanlığı qamçılayır, bu səbəbdən də mövhumatçı dindarların kəskin müqaviməti ilə üzləşirdi, “Əkinçi”də



yazmağa başladıqdan sonra isə nadan dairələrdə onu sevməyənlərin, ona düşməncəsinə münasibət bəsləyənlərin sayı daha da artdı.

**Ölümü barədə müxtəlif iddialar...**

Seyid Əzimin ölümü haqqında yazarkən bir qayda olaraq, “1888-ci il mayın 20-də Şamaxıda vəfat edib” cümləsi ilə kifayətlənirlər. Halbuki onun 53 yaşında qəfil ölümü ilə bağlı iddialardan biri sui-qəsd nəticəsində dünyasını dəyişməsi ilə bağlıdır. Böyük maarifçinin məscid qapısında yaradılan süni basabasda öldüyü də deyilir. Bir variantda isə onun mövhumatçı insanlar tərəfindən qətlə yetirildiyi söylənir. Ancaq birinci ehtimal daha geniş yayılıb.

Aradan keçən 191 ilə baxmayaraq, Seyid Əzim Şirvaninin ideyaları və yaradıcılığı sübut edir ki, həqiqi söz sənətkarı heç vaxt unudulmur. Onun qələmi sussa da fikirləri yaşayır, kitabları oxunduqca nəfəs alır və hər yeni oxucu ilə birlikdə yenidən doğularaq gələcək nəsillərə elmə, düşüncəyə və mənəvi zənginliyə aparan yolu göstərməyə davam edir...

*Yeganə BAYRAMOVA*



# “Araz-Naxçıvan” futzal klubunun rəqibləri müəyyənləşib




Futzal üzrə UEFA Çempionlar Liqasında 2026-2027-ci illər mövsümünün ilk püşkatma mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, püşkün nəticəsinə əsasən, ilkin və əsas mərhələdə iştirak edəcək komandaların rəqibləri müəyyənləşib.

Azərbaycan çempionu “Araz-Naxçıvan” əsas mərhələnin B yolunda mübarizəyə başlayacaq. Komandanın yer aldğı 5-ci qrupun oyunları Polşada keçiriləcək.

“Qırmızı-ağlar” “Piast”, eləcə də ilkin mərhələnin C (“Buba Mara” (Bosniya və Herseqovina), GİU (Gürcüstan), “Utleyra İdrettslaq” (Norveç), LYNX (Cəbəllütarıq) və E (“Veilimdorf” (Almaniya), “Tallin” (Estoniya), “Unisport” (Ermənistan), “Reykyavik” (İslandiya) qruplarının qalibləri ilə üz-üzə gələcək.

Əsas mərhələnin oyunları oktyabrın 27-dən və noyabrın 1-dək keçiriləcək. Yalnız qrup qalibi 1/8 finalda oynamaq hüququ qazanacaq.

Məlumat üçün qeyd edək ki, ümumilikdə 52 assosiasiyanı təmsil edən 56 komanda yarışda iştirak edəcək. Onlardan 32-si ilkin mərhələdə mübarizə aparacaq və 8 komanda əsas mərhələyə vəsiqə əldə edəcək. Digər 24 klub isə əsas mərhələdən mövsümə start verəcək.

Qeyd edək ki, UEFA İcraiyyə Komitəsinin qərarına əsasən, Azərbaycan və Ermənistan təmsilçiləri bir qrupda ola bilməz. Buna görə də “Araz-Naxçıvan”ın yer aldığı 5-ci qrupdakı iştirakçı komandalarla bağlı dəyişiklik edilə bilər.

# Uels klubunun futbolçusu: mübarizə hələ bitməyib



“Sabah” güclü komandadır, amma mübarizə hələ bitməyib.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Uelsin TNS komandasının futbolçusu Daniel Uilyams UEFA Çempionlar Liqasının I təsnifat mərhələsində Bakıda “Sabah”a 0:2 hesabı ilə məğlub olduqları ilk oyunu dəyərləndirərkən deyib.

Yarımmüdafiəçi qarşılaşmanın çətin keçdiyini bildirib: “Sabah”ın güclü komanda olduğunu bilirdik. Oyun planımıza sadiq qaldıq, lakin iki qol buraxdığımız üçün məyusuq. Bununla belə, qarşıda cavab oyunu var və hələ də şansımızın olduğunu düşünürük”.

Onun sözlərinə görə, 0:2 hesablı məğlubiyyətə baxmayaraq, komandası cavab görüşündə vəziyyəti öz xeyrinə dəyişməyə çalışacaq: “Sabah” hazırda üstün vəziyyətdədir. Ancaq futbol gözlənilməz oyundur. Ümid edirəm ki, gələn həftə vəziyyəti öz xeyrimizə dəyişə biləcəyik”.

Qeyd edək ki, komandalar arasında cavab görüşü iyulun 14-də keçiriləcək.

# “İmişli” heyətini yeni qapıçı ilə gücləndirib

“İmişli” heyətini yeni qapıçı ilə gücləndirib. Klubdan AZƏRTAC-a bildirilib ki, 21 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandasının üzvü olan Sadiq Məmmədzadə ilə 2 illik müqavilə imzalanıb.

O, peşəkar karyerasına “Səbail”də başlayıb və 7 il bu klubun formasını geyinib. Daha sonra “Qarabağ”ın əsas komandasına qoşulan qapıçı son mövsümü icarə əsasında “Difai” klubunda keçirib.

# “Sabah”ın hücumçusu: Uels klubu ilə cavab oyunu tamam fərqli keçəcək



Yaxşı oyun keçirdiyimizi düşünürəm. Bu sözləri AZƏRTAC-a açıqlamasında “Sabah”ın futbolçusu Coy-Lens Mikels UEFA Çempionlar Liqasının I təsnifat mərhələsində Bakıda Uelsin TNS komandasını 2:0 hesabı ilə məğlub etdikləri ilk oyundan sonra deyib.

Almaniyalı hücumçu bildirib ki, rəqib müdafiədə çox sıx oynadığı üçün hücum qurmaq və boşluqlar tapmaq asan olmayıb: “Belə komandaya qol vurmaq həmişə çətin olur. Bununla belə, istəyimizə çatdıq. İlk qoldan sonra rəqibin daha açıq futbol oynayacağını və hücumlarının sayını artıracağını gözləyirdik. Ancaq hesab 2:0 olduqdan sonra da oyun üslublarını dəyişmədilər. Bu səbəbdən matç çətin keçdi. Qələbə qazandığımız üçün sevinirik”.

Forvard cavab görüşünün tamam fərqli keçəcəyini vurğulayıb: “Çünki onlar artıq hücum etməyə və hesabdakı geriliyi aradan qaldırmağa çalışacaqlar. Bu isə meydanda daha çox boşluqların yaranmasına səbəb ola bilər. Belə olacağı təqdirdə, daha çox qol imkanları əldə edəcəyimizə inanıram”.

O, “Sabah”ın Çempionlar Liqasındakı hədəfləri barədə danışmağın tez olduğunu söyləyib: “Qarşıda uzun yol var. Əlbəttə, mümkün qədər irəli getmək istəyirik. Hazırda bütün diqqətimizi cavab görüşünə yönəltmişik. Bu mərhələni adladıqdan sonra növbəti rəqibimiz barədə düşünəcəyik”.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4362**
**Sifariş: 874**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova